

**Dünya oftalmologiya elminə töhfələrini verən böyük alim - ZƏRİFƏ ƏLİYEVA**

3

SƏS

№ 065 (6506) 15 aprel 2022-ci il. Qiymәti 60 qәpik

## Vətən Müharibəsi Qəhrəmanlarının sosial müdafiəsi yönündə növbəti addım



4

# Paşinyanın yeganə çıxış yolu Bakıdan keçir



**Yaxud, Ermənistandan Qarabağ ermənilәri üçün "planka" səviyyəsi**

Ermənistanın baş naziri Nikol Paşnyanın ölkə parlamentindəki qalmaqallı çıxışı və eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı "status" məsələsini də paralelləşdirməsi Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın narazılığı ilə...

12




## İordaniya qəzeti Ermənistandakı məxfi bioloji laboratoriyalardan yazıb

İordaniyanın "Əl Ənbat" qəzetində Ermənistanda məxfilik şəraitində fəaliyyət göstərən 12 bioloji laboratoriya barədə məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, iordaniyalı akademik Mərvan Sudanın müəllifi olduğu yazıda erməni mənbələrinə istinadla Pentaqonun...

2




## "Yaşıl bazar"da ŞOK qiymətlər!



15

## Qlobal ərzaq böhranı şəraitində Azərbaycanın hazırlıq səviyyəsi




**Aİ-nin siyasi gündəmindən "STATUS" MƏSƏLƏSİ SİLİNİB**

9

Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə Azərbaycan prezidenti cənab İlham Əliyevin Ermənistanın baş naziri...



**"Buğda əkini sahələrinin genişləndirilməsinə ehtiyac var"**

7

"Rusiya-Ukrayna müharibəsinin bir çox sahələrə, o cümlədən, kənd təsərrüfatı məhsulunun istehsalında olan...

# “Bir ildən artıq müddətdir ki, Azərbaycan Avropaya təbii qazın ixracatçısına çevrilib”

*Prezident İlham Əliyevin Albaniyanın Baş naziri ilə təkbətək görüşü olub*

**Dünən Prezident İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub. Albaniyanın Baş nazirini salamlayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirib ki, bu səfər ikitərəfli əlaqələrimizə yeni təkan verəcək: ”Biz regional inkişaf və dünyanın gündəliyində olan başlıca məsələləri müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə gəldikdə, mən məlumatla tanış oldum və əlbəttə ki, biz ticarət dövriyyəmizin artırılması üzərində çalışmalıyıq. Rəqəm olduqca kiçikdir, lakin hesab edirəm ki, burada artım potensialı var və biz bunu bu gün müzakirə edəcəyik.**





Əlbəttə, enerji sektorunda əməkdaşlığımız haqqında da danışacağıq. Bir ildən artıq müddətdir ki, Azərbaycan Avropaya təbii qazın ixracatçısına çevrilib və Albaniya hər zaman bu təşəbbüsü dəstəkləyib. Ölkənizin yüksək səviyyəli nümayəndələri Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclaslarında hər zaman iştirak ediblər və həmin layihənin icrasına öz böyük töhfələrini veriblər. Yəni, biz bu tarixi layihəni icra etmiş ölkələrdən ibarət olan komandadayıq. Hesab edirəm ki, bu gün Cənub Qaz Dəhlizi və xüsusilə də Trans-Adriatik boru kəmərinin əhəmiyyəti daha qabarıq görünür.

Bu, əməkdaşlığımızın ən yaxşı sahələrindəndir ki, burada böyük artım potensialı var. Bizim nümayəndələrimiz enerji əməkdaşlığımız ilə bağlı daha geniş portfelə malik olmaq istiqamətində görüşlər keçirirlər. Buraya təbii qaz, tranzit, təchizat, elektrik enerjisi daxildir və bu, həqiqətən də bizim ikitərəfli gündəliyimizin əhəmiyyətli hissəsini təşkil edə bilər. Əminəm ki, hazırda danışıqlar mövzusu olan məsələlər yeni inkişafla nəticələnəcək.”

Baş nazir Edi Rama:

”Təşəkkür edirəm cənab Prezident. İlk növbədə, uzun illərdən sonra vəziyyətin dözülməz həddə çatması nəticəsində ölkənizin ərazisinin bir hissəsini uğurla geri qaytardığınız dövrdə burada olmağımdan çox məmnunam. Bildiyiniz kimi, Albaniya ATƏT-in sədri və hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi hər zaman Azərbaycanı, həqiqəti və ölkənizin tarixi hüquqlarını dəstəkləyir və bunu etməyə davam edəcək. Biz Sizin qonşunuz Ermənistanla sülhə və uzunmüddətli əməkdaşlığa yönəlmiş olduqca nümunəvi səylərinizi alqışlayırıq.

Eyni zamanda, xoşbəxtlikdən Türkiyə kimi dövlətin simasında güclü körpüyə malikik. Qəti şəkildə inanıram ki, Sizin də qeyd etdiyiniz kimi, biz daha çox işlər görə bilərik. Əlbəttə, əməkdaşlığımızın artırılması potensialına malik sahələr var və mən bununla bağlı Sizin fikirlərinizi öyrənmək, habelə perspektivləri müzakirə etmək arzusundayam. Bundan əlavə, heyətlərimiz müzakirələr aparır və görək, istər enerji, istərsə də turizm sahəsində hansı nəticələr əldə olunacaq.

COVID artıq bir növ sakitləşib və ümid edirəm ki, Siz Albaniyaya səfərə gələcəksiniz. Cənab Prezident, gözəl paytaxtınıza ilk qədəmlərimizdən bizə göstərilən bu yüksək qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.”

## İordaniya qəzeti Ermənistandakı məxfi bioloji laboratoriyalardan yazıb

İordaniyanın ”Əl Ənbat” qəzetində Ermənistanda məxfilik şəraitində fəaliyyət göstərən 12 bioloji laboratoriya barədə məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, iordaniyalı akademik Mərvan Sudanın müəllifi olduğu yazıda erməni mənbələrinə istinadla Pentaqonun Ermənistanda qurduğu bu laboratoriyaların törətdiyi təhlükə barədə məlumat verilib. Müəllif qeyd edib ki, bununla bağlı ərəbdilli qəzet, agentlik və portallarda da materiallar yayımlanıb. Eyni zamanda, Ermənistandakı qeyri-hökumət təşkilatları və siyasi partiyalar bioloji laboratoriyalarda aparılan tədqiqatların açıqlanması tələbi ilə müxtəlif aksiyalar keçirib, hökumətdən izahat tələb ediblər. Bu ölkənin ”Gənclər birliyi” təşkilatı həmin məxfi obyektlərdə monitorinq aparılması tələbi ilə nümayiş də təşkil ediblər.



Məqalədə qeyd olunub ki, Azərbaycanın Qarabağ bölgəsindən erməni silahlı dəstələrinin çıxarılması və sülh müqaviləsinin imzalanmasının müzakirə olunduğu bir şəraitdə Ermənistanın bütün Cənubi Qafqazda təhlükə mənbəyinə çevrilə biləcək bu cür məxfi bioloji laboratoriyaların fəaliyyətinə imkan yaratması yolverilməzdir. ”Ermənistan hökuməti bununla bağlı müraciətlərə müsbət cavab verməli, bu məsələ ilə əlaqədar öz xalqına və dünya ictimaiyyətinə şəffaf şəkildə izahat verməlidir”, - deyə məqalənin sonunda vurğulanıb.

## Ukrayna KİV-i Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupu haqqında fikirlərinə yer ayırıb

Ukrayna KİV-i Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə haqqında məqalələr dərc edib. AZƏRTAC xəbər verir ki, ”İnterfaks-Ukrayna” informasiya agentliyinin saytında, ”meblevozka.in.ua” xəbər portalında dərc olunan məqalələrdə Prezident İlham Əliyevin müşavirədə ATƏT-in Minsk qrupu haqqında söylədiyi fikirlər yer alıb. Məqalələrdə dövlətimizin başçısının çıxışına istinadla qeyd olunub ki, Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat faktiki olaraq de-yure qüvvədə olsa da, de-fakto etibarsız sayıla bilər.

”Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır”, - deyə məqalələrdə Prezident İlham Əliyevin sitatları vurğulanıb.






# Dünya oftalmologiya elminə töhfələrini verən böyük alim - ZƏRİFƏ ƏLİYEVA

**Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftalmoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anım günüdür. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani kefiyyətləri, elmi fəaliyyəti təkrarsız bir insan olaraq hər zaman xatırlanır.**



Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində belə deyirdi: "Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir".

Bəli, qeyri-adi peşəkarlığı ilə şöhrətlənən, dünya oftamologiya elminə töhfələrini verən, böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyeva öz əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmişdir. Hər insan əməli fəaliyyətində bu səadətə - insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Böyük istedad, zəhmət və geniş qəlb insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır. Elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftalmologiya elmində öz möhrünü vurub.

Müasirlərindən biri yazırdı ki, Zərifə Əziz qızı göz yaşı ifrazının pozulması, göz yaşı ifraz edən orqanların xəstəlikləri məsələləri ilə məşğul olmağa başlamışdı: "Uzun müddət belə halların mahiyyətini və səbəblərini anlamaq qeyri-mümkün idi. Biz yalnız bu gün bilirik ki, quru göz sindromu deyilən bir əlamət vardır. O illərdə isə bu haqda heç nə eşitməmişdik. Amma bu, alimin öncəgörmə qabiliyyətidir. Bu keyfiyyət məhz istənilən istiqamətdə yaradıcılıqla işləyən insanlara xasdır".

Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. O, elm sahəsində elə bir yüksək zirvədədir ki, zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Özü də yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.

Onun keçdiyi həyat və elmi yoluna nəzər salaq. Şərəfli bir ömür yolu. Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

## AZƏRBAYCAN TİBB ELMİNİN SƏHİFƏLƏRİNƏ YAZILAN TƏDQİQATLAR

Klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub. Onun elmi nailiyyətlərinə nəzər saldıqda nə qədər böyük əhəmiyyətə malik olduğunu görürük.

Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi.

## ZƏRİFƏ XANIM HƏM XEYİRXAH, HƏM AĞILLI, HƏM DƏ QÜDRƏTLİ İDİ

Onun elmi nailiyyətləri ilə yanaşı, ziyalı işığı da daim insanlara nur, qüvvət verib. Zərifə Əliyevanın hər sözü, hər bir hərəkəti nümunəyə çevrilib. Hətta həmkarlarına verdiyi tövsiyələr onun ziyalılığının nümunəsidir. İnsana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir kimi tövsiyələri diqqəti çəkir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verib.

Çox alimlər, ziyalılar onun ünvanına - şəxsiyyətinə, elmi uğurlarına, tədqiqatlarına yüksək fikirlərini bildiriblər. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!"

Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu qeyd ediblər. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, bir alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə və zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan əlvan çalarlı ömrünü yazılı salnamələrdə əks etdirdi.

## "ZƏRİFƏ XANIM ÇOX SADƏ BİR İNSAN İDİ, HEÇ VAXT BÜRUZƏ VERMİRDİ Kİ, HEYDƏR ƏLİYEVİN - BİRİNCİ KATİBİN HƏYAT YOLDAŞIDIR"

Zərifə xanımın zəngin daxili aləminin formalaşmasında ailəsinin, valideynlərinin çox böyük rolu olmuşdu. Tanınmış alim və həkim, keçmiş SSRİ-də böyük nüfuz qazanmış bir dövlət xadimi Əziz Əliyevin qızı məhz Zərifə xanım kimi olmalı idi. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur. Zərifə xanım Ulu Öndər Heydər Əliyev kimi bir dahi üçün təkcə sədaqətli ömür-gün yoldaşı olmamışdı, həm də mənəvi dayağa, əsl dosta çevrilmişdi. Həyatının sonunadək onu qorumuşdu. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Zərifə xanım Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə - Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin - birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi".

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüdüb - ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Zərifə xanım Azərbaycana Cənab İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində Ulu Öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsirini görürük. Bizə Zəfər yaşadan Cənab İlham Əliyevi bu xalqa bəxş edib.

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrilib. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur. 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunmuşdur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Vətən Müharibəsi Qəhrəmanlarının sosial müdafiəsi yönündə növbəti addım

## Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanlarına və ailə üzvlərinə verilmiş mənzillərin özəlləşdirilməsi haqqında" Fərmanı yüksək qayğının təzahürüdür

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial qayğıya ehtiyacı olan vətəndaşları hər zaman xüsusi nəzarətdə saxlayıb. Həm Birinci, həm də İkinci Qarabağ müharibələri zamanı şəhid olmuş qəhrəman zabit və əsgərlərin ailələrinin mənzil təminatının, həmçinin qazilərin sosial vəziyyətinin yaxşılaşdırılması, eyni zamanda, müharibədə qəhrəmanlıqla döyüşmüş və qazi adı qazanmış veteranların avtomobillərlə təmin olunması üçün ölkədə bir çox sosial layihələr həyata keçirilib. Bu gün də belə sosial layihələr dövlət tərəfindən uğurla davam etdirilir. Ümumilikdə 2021-2025-ci illərdə 10 minə yaxın mənzil şəhid ailələrinə təhvil veriləcək. Burada Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da fəaliyyətini xüsusilə qiymətləndirmək lazımdır. O, hər zaman Prezidentin yanındadır və Onun ən yaxın silahdaşı kimi məsuliyyətli vəzifəsinin öhdəsindən layiqincə gəlir.**

### Sosial təminatda Heydər Əliyev Fondunun uğurlu nəticəsi

Məhz sosial təminat işlərində Prezidentin siyasətinin uğurla həyata keçirilməsində Heydər Əliyev Fondu davamlı olaraq həm şəhid ailələri və qazilərə, həm də müxtəlif sosial qruplara mənsub səhhətlərində problem olan uşaqların və yaşlıların müalicəsi üçün lazımi dəstəyi verir. Və aprelin 8-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarına və onların ailə üzvlərinə ayrılmış mənzillərin özəlləşdirilməsi haqqında imzaladığı Fərmana əsasən müəyyən edilib ki, Azər-





baycan Respublikası Prezidentinin 2021-ci il 25 avqust tarixli 2871 nömrəli Sərəncamının 1.1-ci bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə, eləcə də ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvlərinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ayrılmış mənzillər əvəzsiz olaraq həmin mənzilin ayrıldığı şəxslərin mülkiyyətinə verilməklə özəlləşdiriləcək. Bu Fərmanda nəzərdə tutulan şəxslərin mənzillər üzərində mülkiyyət hüququnun "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını və mənzillər üzərində mülkiyyət hüququna dair çıxarışın və daşınmaz əmlaka dair texniki pasportun verilməsini təmin etməli, bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 avqust tarixli 2871 nömrəli Sərəncamına uyğun olaraq mənzil ayrılmış şəxslərin siyahısını (hər bir şəxsə ayrılmış mənzilə dair məlumatlar dəqiq göstərilməklə) və mənzilin ayrılmasına dair müvafiq təsdiqedici sənədin surətini bir ay müddətində İqtisadiyyat Nazirliyinə təqdim etməli, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

### Vətən Müharibəsi Qəhrəmanına verilən imtiyazlar

"Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüşmüş şəxslərə Azərbaycan qanunvericiliyində bir sıra imtiyazlar və güzəştlər nəzərdə tutulub. "Vətən Müharibəsi Qəhrəmanı" adı haqqında Əsasnamənin 2.1-ci maddəsində göstərilib ki, "Vətən Müharibəsi Qəhrəmanı" adı Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin azad olunması zamanı düşmənin əlverişli ərazilərdə yerləşməsinə və inadlı müqavimətinə baxmayaraq, düşmən qüvvələrinin tam məğlub edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırıqlarına və Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edilməsinə, həmçinin döyüş əməliyyatlarında göstərdiyi şəxsi qəhrəmanlığa görə verilir.Vətən Müharibəsi Qəhrəmanı adını alan şəxs Vətən Müharibəsi medalı və adının verilməsi haqqında müvafiq icra hakimiyyəti oqranının müəyyən etdi orqan aktı ilə qəbul edilir. Bu ad eyni şəxsə bir dəfə verilir və həmin şəxslər müəyyən imtiyaz və güzətlərdən istifadə etmək hüququna malikdirlər. Vətən Müharibəsi Qəhrəmanlarına Prezident təqaüdü verilir.

Bundan əlavə, Vətən Müharibəsi Qəhrənamlarına əlavə güzəştlərlə bağlı Əmək Məcəlləsinə və Vergi Məcəlləsinə dəyişiklik edilib. Əmək Məcəlləsinə dəyişikliyə əsasən, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət (yaralanma, travma, kontuziya) alan işçilərə, Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarına, Azərbaycanın Milli Qəhrəmanlarına, Sovet İttifaqı Qəhrəmanlarına, 1941-1945-ci illər müharibəsində döyüş əməliyyatlarında iştirak etmiş, habelə hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçulara, İstiqlal ordeni ilə, habelə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi ilə bağlı digər dövlət təltifləri ilə təltif olunmuş işçilərə məzuniyyət 46 təqvim günündən az olmayaraq verilir. Vergi Məcəlləsinin 102.21-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Vətən Müharibəsi Qəhrəmanlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. Başqa sözlə, onların aylıq gəlirlərinin 400 manatı



vergidən azad edilib. Və bütün bu uğurlu işlər onu göstərir ki, dövlət Vətən Müharibəsi Qəhrəmanlarına və ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi yönündə bundan sonra da sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq. Dövlət başçımızın dediyi kimi: "Qəhrəman döyüşçülərimiz gələcəkdə də daim mənim nəzarətim altında olacaqlar".

**RƏFİQƏ HÜSEYNOVA**



# "Xalqın mütləq əksəriyyətinin dəstəyini qazanmış Prezident" mövzusunda konfrans keçirilib

**Aprelin 14-də "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının və partiyanın Kəlbəcər rayon təşkilatının birgə təşkilatçılığı ilə "Xalqın mütləq əksəriyyətinin dəstəyini qazanmış Prezident" mövzusunda konfrans keçirilib.**

Konfransın moderatoru, YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov bildirib ki, 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkiləri xalqımızın Prezident İlham Əliyevə yüksək etimadının növbəti göstəricisi oldu. Onun sözlərinə görə, ötən illər ərzində qazanılan böyük uğurların zirvəsində işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyü-














müzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. H.Misirov YAP Kəlbəcər rayon təşkilatının fəallarının dövlət başçısının siyasətinin uğurlarının təbliğində aktiv iştirak etdiyini diqqətə çatdırıb.

Çıxış edən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov ulu öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən, Yeni Azərbaycan Partiyasının yaradılmasının tarixi əhəmiyyətindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığı bir dövrdə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdaraq xalqımızı bütün təhlükələrdən xilas etdi. Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezidentimiz cənab İlham Əliyev Azərbaycanı daha da gücləndirib, dünyada söz sahibi olan dövlətə çevirib. "Cənab İlham Əliyev fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiqləyib. 44 günlük Vətən müharibəsində qazanılan zəfər sübut etdi ki, cənab İlham Əliyev tarix yazan sərkərdədir. Vətən müharibəsində qəhrəman ordumuzun rəşadəti, şəhidlərimizin qanı hesabına torpaqlarımız işğaldan azad edildi. Ermənistan silahlı birləşmələri ordumuzun qarşısında diz çökdü, üç rayonumuz, o cümlədən Kəlbəcər qan tökülmədən geri qaytarıldı. Hazırda azad edilmiş digər bölgələrdə olduğu kimi Kəlbəcərdə də Prezidentimizin tapşırığı ilə möhtəşəm işlər görülür", - deyə C.Qurbanov vurğulayıb.





Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev çıxışında bildirib ki, kəlbəcərlilər hər zaman dövlət başçısının siyasətini dəstəkləyib. Onun sözlərinə görə, əhali uzun illər məcburi köçkün həyatı yaşasa da, Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımızın işğaldan azad olunacağına inanırdı və belə də oldu: "Hazırda keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün dövlətimiz böyük işlər görür. Aprelin 12-də Nazirlər Kabinetinin bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirəsində dövlətimizin başçısı Kəlbəcər rayonunda da görülən və görüləcək işlərlə bağlı dəyərli fikirlər səsləndirdi".

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz ötən müddət ərzində sürətlə inkişaf edib, siyasi və iqtisadi stabillik və dayanıqlıq təmin olunub: "Biz ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla addımlayaraq bu günə gəlib çatmışıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 2020-ci ildə Zəfəri ilə özünün güclü və qüdrətli dövlət olduğunu nümayiş etdirdi". A.Rəhimzadə deyib ki, müharibənin başa çatmasından sonra erməni işğalından azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması dövlətimizin qarşısında dayanan başlıca vəzifələrdəndir. Həmin bölgələrdə iqtisadiyyatın dirçəldilməsi ümumilikdə ölkəmizin inkişafına və insanlarımızın rifah halının daha da yaxşılaşdırılmasına öz töhfəsini verəcək.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin siyasəti nəticəsində ölkəmiz böyük inkişaf yolu keçərək güclü dövlətə çevrilib. Bu inkişaf prosesində Yeni Azərbaycan Partiyasının xüsusi rolunu qeyd edən R.Qonaqov cari ildə partiyanın yaranmasının 30 ilinin tamam olduğunu da diqqətə




çatdırıb. O, Vətən müharibəsi nəticəsində Azərbaycanın Cənubi Qafqazda yeni reallıqlar yaratdığını və bu reallıqların bölgənin sülh və əməkdaşlıq məkanına çevrilməsinə xidmət etdiyini söyləyib.

Çıxış edən Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının sektor müdiri Qurban Sadıqov Prezident İlham Əliyevin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərinin ən müasir səviyyədə həyata keçirildiyini deyib. Onun sözlərinə görə, torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərlə bağlı 400-dən çox normativ akt qəbul olunub. Bu dövr ərzində kəlbəcərlilər də hər zaman dövlətimizin qayğısını hiss edib. Q.Sadıqov qeyd edib ki, kəlbəcərlilər dövlətimizin doğma yurdlarına qayıtmaq üçün onlara bütün şəraitin yaradacağına əmindirlər.

YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elməddin Quliyev çıxışında bildirib ki, bu gün dövlət başçısı cənab İlham Əliyevin müəllifliyi ilə Azərbaycanın çağdaş tarixinin şanlı səhifələri yazılır. Onun sözlərinə görə, Xalq-Prezident-Ordu birliyi əsasında qazanılmış şanlı tarixi zəfərimiz nəticəsində hazırda erməni faşistlərindən xilas edilən ata-baba torpaqlarımızda Azərbaycan bayrağı qürurla dalğalanır: "Dövlətimizin başçısının da qeyd etdiyi kimi, işğaldan azad edilmiş bütün torpaqlarımızda həyat yenidən öz axarına düşəcək, erməni vandalları tərəfindən viran qoyulan ərazilərimizdə bütün yaşayış məntəqələri və infrastruktur yenidən qurulacaq, inkişaf edəcək".



Milli Məclisin deputatı Aqil Məmmədov isə çıxışında Azərbaycanın qarşısında yeni inkişaf perspektivlərinin açıldığını deyib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı zəfər gələcək uğurlarımızın əsasını təşkil edir. Bu yolda da xalqımızın birlik və həmrəylik nümayiş etdirəcəyi şübhəsizdir.

**Laçın deyiləndə gözlərim önündə o qədər böyük bir məkan canlanır ki... Həm də Laçın o qədər qədim tarixə, zəngin təbiətə, coğrafiyaya malikdir ki, onun haqqında danışmaq, yazmaq, sözün həqiqi mənasında, məsuliyyət tələb edir. Amma yazdıq, 2020-ci ilin 44 günlük payızında işğaldan azad olunmuş torpaqlarımızın ardınca Laçın da azadlığına qovuşdu.**

# Azad olunmuş

## torpaqlarımızda aparılan quruculuq işlərindən pay alan yurd yerimiz - LAÇIN

10 noyabrda Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış birgə Bəyanatla dekabr ayının 1-də Laçın 30 ildən sonra anası Azərbaycana qovuşdu. Bu müjdəli xəbəri də ölkəmizin başçısı, Ali Baş Komandanımız cənab İlham Əliyevdən aldıq: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

### Laçın dəhlizi - ölüm tuneli

Laçın dəhlizi ermənilər üçün olduqca böyük əhəmiyyətə malik idi. Bu, 1992-ci ilin mayında Azərbaycan Respublikasının ərazisində erməni qüvvələri tərəfindən Qarabağın qondarma "Dağlıq Qarabağ Respublikası" ilə Ermənistan Respublikası arasında açılan dəhlizdir. Uzun illər boyu fəaliyyət göstərən bu dəhliz Ermənistanı Qarabağın dağlıq hissəsinə birləşdirən yeganə təchizat və təminat yolu olaraq Qarabağ müharibəsinin ilk mərhələsində Ermənistanla separatçılar arasında "nəfəs borusu" rolunu oynayıb. Həm müharibə dövrü, həm də ikinci yol çəkiləne qədər Ermənistan Qarabağın bütün hərbi, texniki və mülki təchizatını bu yol vasitəsilə həyata keçirib. Məhz buna görə də Laçın ərazisinin Azərbaycana qaytarılması və ya heç olmasa bu dəhlizin erməni tərəfinin hərəkəti üçün bağlanılması, Ermənistanı Qarabağ ərazilərinə nəzarətdən məhrum edirdi. Bu dəhlizdən qondarma Dağlıq Qarabağ Respublikası Ermənistana böyük miqdarda ərzaq və digər materiallar keçirir, əvəzində isə Ermənistan Respublikası Dağlıq Qarabağ Respublikasından elektrik alırdı. Bir sözlə, Laçın dəhlizi olmadan Qarabağ, Şuşa ola bilməzdi onlar üçün. Ona görə də burada mövqelərini gücləndirmişdilər. Lakin bir zamanlar öz əlləri ilə başqasının torpağında, Laçın şəhərinin tən ortasından açdıqları dəhliz, sən demə, qarşıdakı illərdə ölkəmizin rəhbəri tərəfindən onların ölüm tunelinə çevriləcəkmiş. Çevrildi də. Ermənilərin Laçından çıxması görüntülərini televiziya vasitəsilə izləyənlər bunun bir daha şahidi oldular ki, onların nəfəs boruları tıxanmışdı. Çünki Laçın dəhlizi əllərindən çıxırdı, deməli, həyat onları tərk edirdi.

Azərbaycan Respublikasının Prezidentinin xalqa müraciətindən: "Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə, 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir".

Dövlətimizin başçısı onu da vurğulayırdı ki, uzun illər ərzində - 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox.

Beləliklə Laçının işğaldan azad olunması ikiqat qələbə sevincini bizə bəxş etdi. Ölkəmizin başçısının uzun illər apardığı danışıqların, həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq bu qədər böyük əhəmiyyətə malik olan yurd yerimiz ermənilərin və onların havadarlarının istəklərinin əksi olaraq geri qaytarıldı. Laçın ermənilərə göz dağı oldu.




**İlham Əliyev: "Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik"**

### 30 illik yaraları sağaldan həkimlər - şəhidlər

II Qarabağ müharibəsi tariximizin parlaq səhifələrini təşkil edir. Bu parlaqlığı çox məqamlar xarakterizə edir. Dövlət-xalq birliyi, həmrəylik, vətənpərvərlik, torpaq sevgisi, bayraq sevdası, ölümün üzünə dik baxmaq və sair. Lakin biz nəsil üçün daha önəmli olan bir məqam da var ki, 30 illik Qarabağ yaralarını sağaldan həkimlər məhz biz nəslin övladlarıdır. 30 ildə sağalmaq bilməyən, qanı süzən, qaysaq bağlamayan yaraları 30 il əvvəl o acı günlərin hər birinin canlı şahidi olanların övladları sarıdı. Bu yaraların üstünə öz qanlarını məlhəm edib çəkdilər. 30 ilin yaraları 44 gündə sağaldı. Bu yaraları sağaldanlar həm də torpaqlarımızın nisgildən kor olan gözlərinə məlhəm oldular. Torpaq canlandı, özünə gəldi, bayrağına, insanına, yurddaşına qovuşdu. Onların - o həkimlərin, o şəhidlərin hesabına. Qürur duyduğumuz, qarşılarında əbədiyyən baş əydiyimiz igid oğullarımızın hesabına geri alındı yurd yerlərimiz. Onlar öz gənc ömürlərini torpağın azadlığına, milli mənliyin xilasına, bir də ata-babalarının torpaq təşnəsinə qurban verib bizi torpaqlı, elli, yurdlu etdilər. Üzərimizdən qaçqınlığı, köçkünlüyü götürdülər. Və tarix durduqca Qarabağın şahinlərinə, yaraların təbibinə çevrildilər. Laçına da qələbə cığırlarını o igidlər açdılar. Ruhunuz şad olsun, Vətən oğulları!

### Laçına yeni həyat gəlir

Bu həyat Laçının işğaldan azad edilməsi, ardınca isə ilkin olaraq bu gözəl yurda elektrik enerjisinin çəkilməsi-nurun səpilməsi ilə başladı. Ötən ilin fevral ayında Güləbirddə Su Elektrik Stansiyası istifadəyə verildi. Prezident İlham Əliyev:"Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş - ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik".

Yeni tikilən yollar da coğrafi quruluşana görə təbiət gözəli olan Laçının hüsnünə daha bir yaraşıq həyat bəxş edəcəkdir. Laçına azadlığı kimi, abadlıq bəxş edən dövlətimizin başçısının sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolu böyük əhəmiyyətə malik olacaqdır. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun uzunluğu 72,8 kilometr, hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq, 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Ötən ilin avqust ayında Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoydu, Laçına həqiqətən də yeni həyat bəxş edəcək hava limanı barədə dedi: "Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq.

Bəli, dövlətimizin başçısının da vurğuladığı kimi, Laçın Beynəlxalq Hava Limanının tikintisi tarixi, çoxları üçün gözlənilməz hadisə, hətta möcüzə oldu. Çünki bu hava limanı bir yenilikdir. Burada heç vaxt hava limanı olmamışdır. Laçını əldən vermək istəməyən ermənilər 2022-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan hava limanına enən və buradan səmaya qalxan təyyarələri gördükcə məğlubiyyətlərinin acısını bir daha yaşamalı olacaqlar.

### Sarı Aşıq, sıx sazını sinənə, gəl, Laçını vəsf elə...

Ey Laçının Sarı Aşığı, illərdir, ruhun yurdunun səmalarında dolanırdı, işğal nisgilindən qəbirində özünə rahatlıq tapa bilmirdin. 2020-də səslədin bu yurdun igidlərini, bu torpağın şəhidlərini, bütün oğul-qızlarını yığdın başına. Ozan oldun, çıxdın qabağa, yurdun azad olmasını çatdırdın laçınlılara. Axı sən çox nigarandın Güləbirddən, elə hey bayatılarında deyirdin:

Mən aşiq Güləbirdə,
Şeh düşdü Güləbirdə.
Bir quş olub uçaydım,
Qonaydım gülə bir də.

Gəl, Sarı Aşıq, doğulduğun Qaradağlı kəndi də, uyuduğun Güləbird də sənin yolunu gözləyir. Gəl, yurdunu Vətən hesab edirdin, gəl, alın açıqlığı ilə hər kəsə de ki:

Aşıq, Vətən yaxşıdı,
Köynək kətan yaxşıdı.
Qəriblik cənnət olsa,
Yenə Vətən yaxşıdır.

Gəl bu ellərə bayatı qoş, şeir yaz. İndi Qarabağın bir başqa növrağı var. Qarabağ yenidən qurulur, yaradılır. Qarabağ dünyanın dilində sözdür, igidlərin al qanıdır, Azərbaycanın bayrağıdır. Gəl, sıx sinənə sazını, səsin dağlara düşsün. İndi hamı deyir, sən də de, sırala misralara ki: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

*Mətanət Məmmədova*

# Maska tələbinin ləğv olunmasına CƏMİYYƏTİN BAXIŞI

***Martın 6-dan etibarən Azərbaycanda karantin rejimi yumşaldılıb. Nazirlər Kabineti yanında Operativ Qərargah bununla bağlı müvafiq qərar qəbul edib. Lakin yumşaldılmalarla yanaşı, qapalı məkanlarda tibbi maskadan məcburi istifadə və COVID-19 pasportu ilə bağlı tələb saxlanılıb. Bəs görək şəhər sakinləri maskadan istifadə tələbinin ləğv edilməsi ilə barədə nə düşünür. SİA bu mövzu ilə bağlı sorğu keçirib.***



**Şəhər sakini Pərviz Mirzəyev:** ”Təbii ki, maska tələbi ləğv olunsa



daha yaxşıdır. Düşünürəm ki, maska taxmaq nəyisə dəyişdirmir. Hər şey insanın özündən asılıdır. Sağlamlığımızı qorumaq öz əlimizdədir”.

**Şəhər sakini Solmaz Hacıyeva:** ”Məncə, maska taxmaq məsələsi könüllü olmalıdır. Çox adam heç maska tələbinə riayət etmirdi. Mən yaşlı adamam. Başa düşürəm ki, çox adam olan yerdə maskamı taxmalıyam. Çünki hal-hazırda şərait bizdən



bunu tələb edir. Ən azından tələb ləğv olunana kimi qaydalara əməl etsək daha yaxşı olar”.

**Şəhər sakini Əli Hüseynov:** ”Yoluxmanın azaldığını nəzərə alsaq, maska istifadəsi ləğv edilə bilər. Bəzi obyektlərin fəaliyyəti ilə bağlı qadağalar aradan götürülüb. Artıq maska tələbi də ləğv olunsa yaxşı olar. Havalar da getdikcə istiləşir. Metro və ya avtobuslarda insan maska taxarkən nəfəs almaqda çətinlik çəkir. Tə-



ləb ləğv olunsa da, olunmasa da xəstələrin sayı arta bilər. Yəni, maskanın bizi qoruduğunu düşünmürəm”.

**Şəhər sakini Gülxar Qurbanova:** ”Maska tələbi ləğv olunmasa belə insanlar ondan istəyinə uyğun istifadə edirlər. Hal-hazırda yoluxma sayı azalıb. Amma yenə də insanlar qo-



runsa yaxşıdır. Heç kim yoluxmanın artmayacağına qarantiya verə bilməz”.

**Şəhər sakini Elşən Məmmədov:** ”Hesab edirəm ki, xəstəlik tam şəkildə bitəndən sonra maskadan istifadə



tələbi ləğv olunmalıdır. Onsuz da açıq havada məcburi deyil. Qapalı məkanlarda, insanların çox olduğu yerlərdə maska taxsaq, bir az da olsa, vəziyyəti yaxşılaşdırmağa kömək edərik”.

**Şəhər sakini Nəsibə Novruzova:** ”Mən maskanın ləğv olunması tərəfdarıyam. Artıq getdikcə maska taxmaq insanı narahat edir. Amma ləğv



olunduqdan sonra da hamı gərək özünü qorusun”.

**Şəhər sakini Fikrət Tağıyev:** ”Demək olar ki, Azərbaycandan başqa dünyanın hər yerində maska tələbi ləğv olunub. Maska da, Covid-19



pasportu da ləğv olunmalı, yollar da açılmalıdır. Artıq xəstəliyin davam edəcəyinə inanmıram”.

***Ləman Əlizadə***

## “Böyük Qayıdış planı ilk beşlikdədir”




“Böyük Qayıdış planı Azərbaycanın indiki və gələcəkdəki əsas məqsədləri siyahısında ilk beşlikdədir”. Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli bildirib.

Onun sözlərinə görə, burada bir neçə istiqamətdə işlər görülür: ”Xüsusən ərazinin təhlükəsiz istisması üçün addımlar həyata keçirilir. Bölgələr minalardan təmizlənir. Hansı ki bu il bu istiqamət üzrə büdcədən 100 milyon manata qədər vəsait ayrılıb və bu istiqamətdə intensiv işlər həyata keçirilir. 2020-ci ildən etibarən Böyük Qayıdış olanı üzrə ciddi abadlıq-quruculuq işləri baş tutur və həmin ildə bu istiqamətdə dövlət büdcəsindən birbaşa 2 milyard manat pul vəsaiti ayrılıb. 2022-ci ildə isə 2,2 milyard manat vəsait ayrılıb. Bu vəsaitin də son üç ayda təqribən 346 milyon manatı xərclənib. Burada yol-nəqliyyat infrastruktunun qurulması istiqamətində işlər həyata keçirilir.

Bildiyiniz kimi ciddi sürətdə həm Zəfər yolu quruldu, həm Ağbəndə gedən yolun əhəmiyyətli hissəsi tikilib. Bunlar 4 və 6 zolaqlı yollardır. Bundan əlavə Kəlbəcərdə, Laçında, Ağdamda, Füzulidə yolların tikilməsi ilə bağlı işlər həyata keçirilir. Zəngilanın Ağbənd qəsəbəsinə dəmir yolu xətti çəkilir. Zəngəzur dəhlizinin bərpası istiqamətində intensiv işlər gedir. Əsasən elektrik enerjisi infrastrukturunun qurulması, su elektrik stansiyalarının, istilik elektrik stansiyalarının, yeni kommunal infrastrukturun qurulması istiqamətində də mühüm işlər həyata keçirilir. Bundan başqa ərazilərdə kənd təsərrüfatı əhəmiyyətli əkinçilik həyata keçirilir. Bu il 50 min hektarda taxıl əkiləcək. Təxminən 170, 200 min hektarlıq ərazi Azərbaycanın iqtisadi dövriyyəsinə daxili olub. Bu il Zəngilanın ilk kəndi bərpa olunub və bu ildən həmin ərazidə yaşayışın təmini də nəzərdə tutulub. Yəni artıq əhalinin ilkin məskunlaşması prosesi gedəcək. Həmçinin işğaldan azad olunmuş şəhər və rayonların baş planının təsdiqi bu il həyata keçiriləcək. Bundan sonra həmin ərazilərdə ilkin yaşayış infrastrukturlarının qurulması təmin ediləcək”.

***Abutel İlhamqızı***

## “Bu, Prezidentin sosial siyasətində prioritet məsələlərindən biridir”

“Şəhid ailələrinə və Qarabağ qazilərinə diqqət və qayğının göstərilməsi cənab Prezident İlham Əliyevin sosial siyasətində prioritet məsələlərindən biridir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib. Onun sözlərinə görə, dövlətimiz tərəfindən bu insanlara qarşı həmişə diqqət göstərilib: ”Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müalicə-reabilitasiya işlərinə cəlb olunması, onlara psixoloji yardımların göstərilməsi, iş yerləri ilə təmin olunması yüksək səviyyədə həll olunur. Bugünə qədər 40 minə yaxın müharibədən əziyyət çəkmiş hərbi və mülki vətəndaşa psixoloji yardım göstərilib. Son 3 ildə müharibə əlillərinə 16 mindən çox protez və ortopedik vasitələr verilib. Qarabağ müharibəsində sağlamlığını itirən 7400 vətəndaşımıza minik avtomobilləri verilib. İndiyə qədər 12 500 Qarabağ qazisi və şəhid ailələri mənzillərlə təmin olunub.

Məlumdur ki, torpaqlarımız işğaldan azad olunandan sonra geri qayıdış layihələri artıq ortadadır. Bu il biz məcburi köçkün və qaçqınların bir hissəsinin dədə-baba yurdlarına qayıdacağının şahidi olacağıq. Buna görə də cənab Prezidentin ötən il məcburi köçkünlər üçün tikilən son evlərin şəhid ailələri və Qarabağ qazilərinə verilməsi ilə bağlı sərəncamı oldu. Cənab Prezidentin verdiyi sərəncamlara görə, 2025-ci ilə qədər Azərbaycanda mənzillə təmin olunmayan şəhid ailəsi və ya Qarabağ qazisi qalmayacaq”.

***Arzu Qurbanzadə***

## “Buğda əkini sahələrinin genişləndirilməsinə ehtiyac var”

**“Rusiya-Ukrayna müharibəsinin bir çox sahələrə, o cümlədən, kənd təsərrüfatı məhsulunun istehsalında olan həcmlərin azalmasına təsiri var. Bununla bağlı Azərbaycanda qıtlıq yaranması fikri ilə razı deyiləm”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib.**

Onun sözlərinə görə, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün ciddi tədbirlər sistemli şəkildə həyata keçirilir: ”Anbarların qalıq ehtiyatlarının mütəmadi olaraq İqtisadiyyat Nazirliyi tərəfindən monitorinqi baş tutur. Ərzaq təhlükəsizliyində rol oynayan məhsulların birmənalı olaraq ixracı dövlət tərəfindən tənzimlənir. Rusiya ilə ölkənin taxıla olan ehtiyacının təxminən 55%-i ödənir. Ehtiyacın qalan 45%-i isə idxal hesabına ödənir. İdxalın da böyük hissəsini ərzaqlıq buğda təşkil edir. Ərzaqlıq buğdanın isə 75%-i idxal hesabına ödənir. Bunun da böyük hissəsi Rusiyanın payına düşür”. İqtisadçı sözlərinə davam edərək həmçinin qeyd edib ki, cənab Prezident ötən gün keçirilən müşavirədə söylədiyi kimi idxaldan asılılığın azaldılması



üçün işğaldan azad edilmiş ərazilərimizdə buğda əkini sahələrinin genişləndirilməsinə ehtiyac var: ”Düşünürəm ki, mina təmizləmələrindən dərhal sonra bu proses sürətlə artacaq. Həmin əkin sahələrinin artırılmasına qədər Rusiyadan olan idxal asılılığının Qazaxıstanla əvəzlənməsi prosesi gedir. Alternativ istiqamətlərin tapılması, idxalın həyata keçirilməsi prosesi ilə yanaşı, ölkənin taxıl ehtiyatı da kifayət qədərdir”.

İqtisadçı Natiq Cəfərli də məsələ ilə bağlı münasibət bildirib: ”Azərbaycanın əmtəəlik buğdaya olan tələbatının böyük bir hissəsi Rusiya tərəfindən ödənilir. İndi Rusiya taxıl satışına qadağa qoyub. Bununla da müəyyən problemlər yaşanır. Lakin Azərbaycanın özünün də təxminən 250 günlük taxıl ehtiyatı mövcuddur. Mart-aprel aylarında Qazaxıstanla da danışıqlar intensivləşdi. Son məlumatlara əsasən, keçən ilin I rübünə nisbətən Qazaxıstandan taxıl idxalı 30 dəfə artıb. Bu da ərzaq təhlükəsizliyi və ehtiyat artımı nöqteyi-nəzərindən pozitiv addımdır. Bundan başqa Hindistan ilə də danışıqlar gedir. Yaxın zamanlarda Hindistandan taxıl ehtiyatının əldə olunması gözlənilir”.

***Ləman Əlizadə***

# Rusiya-Ukrayna: kim uduzdu, kim uddu?



Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlar artıq 50-ci gününü arxada qoydu. Bu vaxta qədər nələr baş verib, bunu araşdırmaq hələlik tezdir. Çünki, insan itkiləri, dağıntılar o qədər çoxdur ki, bunu hesablamaq, qiymətləndirmə aparmaq yalnız zamana bağlı məsələdir. Ukraynanın bir tərəfində döyüşlər gedir, digər tərəfində isə uzaqvuran artileriya və uzaqmənzilli raketlərin partlayış səsləri olmasa nisbi sakitlikdir. Ölkənin şimalında dağıntıların fəsadları, işğalçı ordunun dəhşətli izləri analiz edildikcə nələr baş verdiyini qismən anlamaq olur. Dağıntıların və insan itkisinin həcmi və sayı o qədər böyükdür ki, bir anlığa Ukraynada qarşı duran tərəfl arasında düşmənçiliyin daha dərin qatlarda olduğu düşünməli olursan. Amma rus və ukrayna xalqları arasında münasibətlərin dost və qardaşlıqdan da yuxarı olduğundan xəbərimiz var idi. Bəs bunların arasına kimlər girdi, iki xalqı bir birinə kimlər düşmən etdi? Müharibənin səbəblərini də axtardığımız cavablarda tapmaq lazımdır.

Birinci dünya müharibəsi Avstriya-Macarıstan taxt-tacının vəliəhdi hersoq Frans Ferdinandın 28 iyun 1914-cü ildə serb millətçisi və terrorçusu Qavrilo Prinsip tərəfindən Sarayevoda qətlə yetirilməsi bəhanəsindən sonra başlandı. ”Antanta” və ”Üçlər ittifaqı” arasında gedən bu böyük müharibənin nəticələri də gözlənilməz oldu. 1914-cü ildə Osmanlı dövləti ”Üçlər ittifaqı” tərəfindən müharibəyə qoşuldu. Buna cavab olaraq oktyabrın 2-də Rusiya, 5-də Böyük Britaniya, 6-da isə Fransa Osmanlıya qarşı müharibə elan etdi. Suriya, Fələstin və Qafqazda yeni cəbhələr açıldı. Və müharibə başa çatandan sonra bəlli oldu ki, sən demə dava Osmanlı torpaqlarını ələ keçirmək üçün tərtib olunub. İştirakçı dövlətlərin yalnız canlı qüvvə və maddi vəsait itkisi ilə üzləşdiyi müharibədə ən böyük zərəri Osmanlı dövləti gördü. Üç qitədə əraziləri olan Osmanlı ən sonunda torpaqlarının əksəriyyətini itirdi. Bəhanə serb millətçisi, terror qrupunun üzvü olan Qavrilo Prinsip tərəfindən vəliəhdin yalnız Osmanlının ərazisində - Sarayevoda öldürülməsi olsa da, bunun bədəlini Osmanlı ödəməli oldu.

Bu söhbəti II Dünya müharibəsinin səbəbləri və nəticələri ilə də davam etdirmək olar. Amma müzakirə mövzusu Ukrayna olduğuna görə diqqəti orada artıq 50-ci gününü arxada qoyan müharibəyə yönəltməliyik. Bu müharibə də dünya gücləri arasında haqq-hesab meydanlarından biridir. Gizli müharibələr başqa məkanlarda gedir, Ukraynada baş verən hadisələr isə yalnız onun görüntüsüdür. Qərbin məqsədi dünyanın ən varlı təbii resurslarına sahib (75 triltonluq) Rusiyanı zəifləmək, daxildən parçalamaq və sahiblənməkdir. Bu proses əslində SSRİ yarandığı gündən başlayıb. II dünya müharibəsində SSRİ-ni - Rusiyanı ələ keçirməyə çalışdılar, Hitlerin ”Barbarossa” planını sona qədər davam etdirməyə həvəsi olmadı, planlar üzərində dəyişiklik etdi. Özlərinin yetişdirdiyi Hitler Almaniyası Qərbə qarşı ən böyük təhlükəyə çevrildi. Planlar dəyişdi, Krım və Tehran konfransında Hitler bəlasından necə qurtulmağın yolları arandı. Maraqlı burasıdır ki, bu konfranslara qədər düşmən olan SSRİ, Böyük Britaniya və ABŞ Hitlerə görə bir cəbhədə birləşmək qərarına gəldilər...

Ukraynada baş verənləri, Rusiyanın bu ölkəyə hücumunu III dünya müharibəsinin başlanğıcı adlandırılar. Həqiqətənmi III dünya müharibəsi başlayacaq? Bəzi ölkələrin xüsusi ehtiyat fondları yaratması bu sualın cavabının ”bəli” olacağına bir işarədir. Rusiya 40 gün ərzində Ukraynaya hücub etdi, ölkənin dərinliklərindəki müxtəlif təyinatlı silahlarla məhv etdi, paytaxt Kiyevi mühasirəyə aldı, iri şəhərləri ələ keçirdi və bir andaca geri çəkildi. Bu, İstanbulda tərəflərin görüşündən sonra baş verdi, amma geriçəkilmənin taktiki gediş olduğu bir müddət sonra üzə çıxdı. Bu gün Rusiya Ukraynanın cənub və şərq hissələrinə tam nəzarət edir. Qondarma ”DXR” və ”LXR” rüspublikaları və Krım hələ də Rusiyanın nəzarətindədir. Krıma quru yolu da demək olar ki, açılıb. Əgər belə davam edərsə Rusiya məqsədinə çatmış sayılacaq. Bəlli olacaq ki, Kiyevi mühasirəyə almaq, Xarkova, Xersona, Nikolayevə, Zaporojye və digər şəhərlərə hücumlar Ukraynanın hərbi gücünü parçalamaq, diqqəti Donbass cəbhəsindən yayındırmaq məqsədi daşıyırmış. İndi Rusiya müharibənin ikinci fazasına hazırlaşır.








### Ukrayna-Rusiya müharibəsində udan kim, uduzan kim?

Rusiya Ukraynanın şərq sərhədi yaxınlığında aviasiya dəstəsi yaratmağa davam edir, artilleriya bölmələrini gücləndirir, mövcud nəzarət, kəşfiyyat və tibbi təminat sistemlərini optimallaşdırır. Rusiya Xarkov, Donetsk və Zaporojye vilayətlərində hərbi və mülki infrastruktura raket və bomba zərbələri endirməkdə davam edir, sərhəddə nəzarəti gücləndirir, mövqelər, istehkamlar tikir, canlı qüvvə, silah və hərbi texnika təminatını artırır.

Buna qədər isə Rusiya tərəfinin fevralın 24-dən aprelin 13-dək 19800-ə yaxın canlı qüvvə itirdiyi bəlli olub. Rusiyanın itkiləri arasında həmçinin 739 tank, 1964 zirehli döyüş maşını, 358 artilleriya sistemi, 115 reaktiv yaylım atəş sistemi, 158 təyyarə, 143 helikopter, 64 hava hücumundan müdafiə texnikası, yanacaq-sürtkü materialları olan 76 tank və digər texnika var. Rusiyanın tammiqyaslı hücumu nəticəsində Ukrayna vətəndaşları arasında minlərlə ölü və yaralının olduğu məlum olub.

Bu arada ATƏT Rusiya qoşunlarının Ukrayna ərazisində törətdiyi hərbi cinayətləri sənədləşdirən hesabatını təqdim edib. Rusiya Federasiyasının 24 fevral 2022-ci ildən Ukraynaya təcavüzünün insan haqları və humanitar nəticələri ilə bağlı araşdırmanın aparılmasına ehtiyac olduğu bildirilib. Polşa, Latviya, Litva və Estoniyanın dövlət başçıları Ukraynaya səfər ediblər, ABŞ-ın dpvlət katibi və müdafiə nazirinin də səfəri gözlənilir. Bundan əvvəl Almaniyanın federal kansleri Olaf Şolts, İngiltərənin baş naziri Boris Conson Kiyevə gəldilər oradan Rusiyanı hədələyib getdilər. Bütün bunlar Rusiya-Ukrayna müharibəsinin nədən və kimlər tərəfindən körükləndiyi barədə açılan həqiqətlərin yalnız işartılarıdır. Bunlar çör-çöpdür, iri kötüklər nə vaxt görünəcək, bu barədə danışmaq hələlik tezdir. Amma sirr də deyil. Rusiyanı Ukrayna bataqlığına çəkənlər indi də onun batmasını gözləyirlər. Uzun illər Rusiyanı iqtisadi sanksiyalarla hədələyən güclərin daha sərt addım atmaları üçün bəhanələri yetərli deyildi. Kiyevdəki ”Maydan hərəkatı”, bunun ardınca Rusiyanın Krımı ələ keçirməsi, Donetsk və Luqanskda baş verən hadisələr Qərbin ”əlinə oynadı”. Sanksiyalar dalğası getdikcə gücləndi, amma 24 fevral 2022-ci ildən, yəni Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra misli görünməmiş sanksiya seli qərbdən şərqə axmağa başladı. Rusiya bütün dünyadan təcrid edildi, transmilli şirkətlərin Rusiyada, Rusiyanın iri şirkətlərinin isə Avropada fəaliyyəti donduruldu, hesablar bağlandı, bankların işi iflic oldu, bir sözlə Rusiyada qiyamət günü başlandı. Rusiya bütün beynəlxalq təşkilatlardan çıxarılıb yox, silinib. Rusiya da ara-sıra həmlələr edir. Son addım da 398 ABŞ konqresmeninin qara siyahıya salınması oldu.

Müharibə tərəflərindən heç birini nə qalib, nə məğlub adlandırmaq olmaz, Rusiya və Ukraynanın hər ikisi uduzub. Bəs udan, müharibədən qazancli çıxan ölkələr, təşkilatlar, gizli dairələr hansılardır? Bəli, cavabı axtarılan ən tutarlı sual budur.

***V.VƏLİYEV***




# Aİ-nin siyasi gündəmindən "STATUS" məsələsi silinib

**Avropa İttifaqı Şurasının vasitəçiliyi ilə Azərbaycan prezidenti cənab İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla Brüsseldə baş tutan görüşü dünya ictimaiyyətinin diqqətindən yayınmayıb. Bu eləcə də Ermənistan tərəfinin diqqətini cəlb edib və müvafiq nəticələr çıxarmaları üçün kifayət edər. Şarl Mişelin yekun bəyanatı çoxsaylı erməni informasiya və analitik nəşrlər arasında ört-basdır edilməmiş Ermənistanda nəzərəçarpacaq dərəcədə qıcıq yaradıb, çünki, bu görüşün nəticələrində dırnaqarası "status" barədə bir kəlmə də yoxdur.**

Bir sıra erməni ekspertləri iddia edirlər ki, nizamlanma üzrə müharibədən sonrakı danışıqlar təhdid tendensiyasının davamıdır və bu, əlbəttə ki, onların qorxu keçirmələrindən xəbər verir. Həm də bu ondan irəli gəlir ki, müharibədən sonrakı danışıqlar, ələlxüsus son görüşün nəticələri Rusiya sülhməramlılarının məsuliyyət zonasında separatçı rejimin saxlanılması maraqlarına cavab vermir. Yəni, separatçı rejim öz mövcudluğu üçün danışıqlarda heç bir əsas görə bilmir və bu onun məhvi, meydandan çıxarılması deməkdir. Heç bir yekun bəyanatın mətni Qarabağı "xüsusi statuslu" ərazi kimi qeyd etmir və bu onlar üçün sonun başlanğıcıdır.

Brüsseldə Aİ-nin qarşıda gözlənilən sülh planı ilə bağlı mövqeyi açıq-aşkar ortaya qoyuldu. Göründü ki, Avropa diplomatiyası ikitərəfli dialoqun bərpasını alqışlayır və Rusiyanın vasitəçiliyi ilə belə əldə edilmiş razılaşmalar fonunda gərginliyin azaldılmasının vacibliyi nəzərə alınır. 9-10 noyabr 2020-ci il tarixli bəyanat, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli razılaşmalar, o cümlədən iqtisadi və nəqliyyat əlaqələri üzrə üçtərəfli işçi qrupunun fəaliyyəti Brüsseldə alqışlandı. Avropa əvvəllər olduğu kimi, Cənubi Qafqazda gözlənilməz xərclərlə özünü yükləməyə çalışmır, sülhün vacibliyi barədə nəticələrə gəldiyini bəyan edir. Eləcə də Bakı ilə İrəvan arasında dialoqun vacibliyi vurğulanır.

Aİ-nin regiondakı siyasətinin əsas, özü də son zamanların ən əlamətdar hadisəsi ATƏT-in Minsk Qrupunun fəaliyyətinin əhəmiyyətinin devalvasiyasıdır. Bilirik ki, rəsmi İrəvanın bu qrup çərçivəsində Azərbaycana məxsus olan Qarabağ ərazisində status məsələsini müzakirə etmək ümidi olub. Bunun üçün ermənilər hər zaman əldən-ayaqdan gediblər. Rusiyanın Minsk Qrupundan bu yaxınlarda "kənar edilməsi", ümumiyyətlə bu qrupun mövcudluğu barədə marağın olmaması faktiki olaraq Avropa diplomatiyasının indi hansı istiqamətdə aparıldığını göstərir. Brüsseldə açıq-aşkar bildirildi ki, separatizmə dəstək, yol ola bilməz və bu baxımdan ermənilərin çirkin niyyətlərini həyata keçirmələri üçün qəbul etdirməyə çalışdıqları dırnaqarası "status" da, Ali Baş Komandanımızın dediyi kimi, cəhənnəmə getdi. Hətta o da göründü ki, Aİ ATƏT-in Minsk Qrupu timsalında perspektivsiz əməkdaşlığa son qoyub.

Heç şübhəsiz ki, bu gün Azərbaycanın təsir gücü artır, söz sahibi olduğu da göz önündədir, ona görə də Qərbin Bakıya təzyiq rıçaqları yox dərəcəsindədir. İndi Azərbaycan tərəfinin qətiyyətli, güclü, üstün olduğu bir vaxtda separatçı qurumun, rejimin "statusunu" müzakirə etmək ermənilərin özləri üçün də tamamilə qeyri-real görünür. Paşinyan hökuməti indi ağır vəziyyətdədir və heç bir müqavimət imkanlarına malik deyil. Hətta bu işğalçı ölkənin hakimiyyəti öz ölkəsinin müxalifəti ilə də ehtiyatla dolanır və bunun üçün baş nazir özünə yaxın adamlarının köməyi ilə sülh müqaviləsinin imzalanmasına erməni cəmiyyətinin razılaşdırılması məqsədilə müəyyən təbliğat kampaniyaları da təşkil edir. Paşinyan hakimiyyəti də, erməni cəmiyyəti də artıq yaxşı başa düşür ki, Avropanın enerji təhlükəsizliyinin aparıcı təminatçılarından biri kimi Azərbaycanın Avropada əhəmiyyəti kəskin şəkildə artıbdır. Bakının çoxvektorlu siyasəti Rusiya-Azərbaycan münasibətlərində spekulyasiyaya, Azərbaycan rəhbərliyinin praqmatik mövqeyi isə bu respublikanın geosiyasi qarşıdurma məkanına çəkilməsinə imkan vermir. Balanslaşdırılmış siyasət sayəsində Azərbaycanın öz qonşularından bir neçə addım öndə olduğunu nəinki dünya ictimaiyyəti, Ermənistan cəmiyyəti də bilir və etiraf edir.

Sirr deyil ki, bir zamanlar Qarabağda dırnaqarası "status" məsələsi barədə ermənilərin uydurduqlarına Avropa bugünkü, hazırki kimi yanaşmırdı. Avropa İttifadqı erməni diasporunun təsirini nəzərə aldığındanmı, yoxsa öz maraqlarındanmı bu məsələdə ermənilərin ağzından vurmurdu, amma indi belə deyil və ermənilər uydurduqları "status məsələsinin" yox olduğunu özləri də ürək ağrısı ilə qəbul etməkdədirlər. Onların bunu qəbul etmələri üçün Paşinyan və onun komandası var gücü ilə çalışır. Son günlər erməni baş nazirin səsləndirdiyi fikirlər, ələlxüsus sülh sazişi barədə dedikləri onu göstərir ki, Ermənistanın mövcud hakimiyyəti mövcud reallıqları, Azərbaycanın bölgədə yaratdığı reallıqları erməni cəmiyyətinə qəbul etdirmək üçün səy göstərir. Bu isə təbii ki, əbəs yerə deyil və həmçinin ona görədir ki, başda erməni baş naziri olmaqla, onun komandası da Aİ-nin siyasi gündəmindən "status" məsələsinin silindiyini yaxşı başa düşür və bundan sonra nəyə isə ümid yerlərinin də qalmadığını qəbul edirlər.

**İnam Hacıyev**

## "Yaranan reallıqlar bölgənin inkişafını təmin etməkdədir"

"2021-ci ilin yekunları növbəti ilin Azərbaycan üçün dinamik il olacağını proqnozlaşdırmağa əsas verirdi. 44 günlük müharibədən sonra yaranan reallıqlar bölgənin inkişafını təmin etməkdədir. Azərbaycan öz gücü hesabına azad olunmuş əraziləri tamamilə yenidən və müasir strandartlara uyğun şəkildə qurur. Prezident İlham Əliyevin də söylədiyi kimi, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq". Bunu SİA-ya açıqlamasında millət vəkili Könül Nurullayeva deyib.




Deputatın sözlərinə görə, Azərbaycanın həyata keçirdiyi kompleks tədbirlər bölgənin nəqliyyat və kommunal infrastrukturunun bərpasını da əhatə edir: "100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmiryolunun 60 kilometri artıq hazırdır. Eyni zamanda dörd və altı zolaqlı avtomobil yolu da çəkilir. Yəni, ölkənin yol infrastrukturu sürətlə şaxələnir. Zəngilan Beynəlxalq Hava Limanının bu il istifadəyə verilməsi planlaşdırılır. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. Laçın Beynəlxalq Hava Limanının inşası 2024-cü ilə planlaşdırılır.

Zəngəzur dəhlizinə gəlincə, Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, əgər Ermənistan Zəngəzur üzərindən keçid verməsə, özü itirəcək və 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Ermənistan öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda təbii ki,Azərbaycan da hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacaq.

Dövlət başçımız yaxın perspektivdə inşa olunacaq sosial obyektlərlə bağlı da məlumat verdi. Məlum oldu ki, bu il Ağdam, Şuşa və Cəbrayıl daxil olmaqla 3 məktəbin inşası başa çatacaq, eyni zamanda dörd xəstəxana inşa edilir. Şuşa şəhərində xəstəxana bu il istismara veriləcək, Ağdamda 210, Füzulidə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaq. Görülən bütün işlər böyük qayıdışdan sonra insanların layiqli həyat səviyyəsini təmin etməkdir.

Qarabağ və Şərqi Zəngəzur həm də enerji, xüsusilə bərpa olunan enerji potensialı ilə töhfə verməkdədir. Artıq ötən il azad edilmiş ərazilərdə 9 elektrik yarımstansiyası inşa edilib, eyni zamanda alternativ enerji mənbələrindən səmərəli istifadə üçün praktik addımlar atılır. Bərpa prosesi həm də iş yerləri, kənd təsərrüfatı və sənaye parklarının qurulmasını əhatə edir. Bir sözlə, Azərbaycan postmünaqişə dövründə qarşıya qoyduğu vəzifələri plan üzrə yerinə yetirir. Əldə olunan uğurlar həm də layihələrin vaxtında icra olunmasının vacibliyini bir daha ön plana çıxarır".

## "Azərbaycan-Qırğızıstan münasibətləri yüksək səviyyədədir"

"Azərbaycan-Qırğızıstan münasibətləri çox yüksək səviyyədədir. 2009-cu ilin oktyabr ayında Naxçıvanda keçirilən görüşdə Qırğızıstan Azərbaycan, Türkiyə və Gürcüstan ilə birlikdə məhz Türk Dövlətləri Əməkdaşlıq Şurasını yaratdılar". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.



Onun sözlərinə görə, ötən ilin noyabr ayının 12-də İstanbulda keçirilən sammitdə Türk Dövlətləri Əməkdaşlıq Şurası Türkdilli Dövlətlər Təşkilatına çevrildi: "Bu təşkilatın əsas təsisçilərindən biri də Qırğızıstandır. Hamıya məlumdur ki, Orta Asiya ölkələri içərisində ən çox siyasi sabitliyin pozulduğu ölkə Qırğızıstandır. Bütün bunlara baxmayaraq Azərbaycan-Qırğızıstan münasibətləri yüksək səviyyədədir. Bildiyimiz kimi Azərbaycan və Qırğızıstan Xarici İşlər Nazirlikləri arasında videokonfrans formatında siyasi məsləhətləşmələr keçirilib. Burada Türkdilli Dövlətlər Təşkilatı ilə bağlı məsələlər müzakirə edildi.

Bildiyimiz kimi TÜRKSOY 2023-cü ili "Şuşa ili" elan etdi. Bundan əlavə Azərbaycan ilə Qırğızıstan arasında ticari dövriyyəsi nisbətən aşağı səviyyədədir. Düşünürəm ki, konfrans zamanı Azərbaycan ilə Qırğızıstan arasındakı ticari əlaqələr də müzakirə olunub. Qırğızıstan bizə qardaş olan bir dövlətdir. Bu səbəbdən bu tipli görüşlərin daha da intensivləşəcəyinə inanıram".

**Arzu Qurbanzadə**



# "Erməni aşiqi" bu dəfə "rus aşiqi" rolunda...

...avropalılar Ukraynanı Avropa İttifaqında görmək istəmirlər. "..Mən şadam ki, Putin möhkəmlik və beynəlxalq hüquqa sadiqlik nümunəsi göstərir..(?)".

...Bu dəfə Fransa prezidentliyinə namizəd, qatı millətçi Marin Le Pen özünü "rus aşiqi" kimi göstərməyə çalışıb. Ermənisevər olduğu bəlli olan bu xanım bu dəfə rusların şəninə mədhiyyəlik edir. Yuxarıdakı fikirlər də ona məxsusdur. Nə bilmək...əslində nə desən ola bilər. Hazırkı prezident Emmanuel Makronla aralarındakı səs fərqi elə də böyük deyil: 27,84- 23,15.

Deyim ki, bu gün Fransada da xeyli sayda rus miqrant kimi yaşayır və təbii ki, əksəriyyəti də səsvermə hüququna malıkdir. Yəni aprelin 24-də keçiriləcək səsvermənin ikinci turunda Le Penə köməkləri dəyə bilər.

" Rusiya modeli Amerika modelinə iqtisadi alternativdir. Biz birlikdə strateji maraqlarımızı daha yaxşı qoruya və dolların hədsiz imtiyazlarına əsaslanan dünya maliyyə sisteminə qarşı mübarizə apara bilərdik".

Qeyd edim ki, bu fikirləri də bir müddət bundan əvvəl Marin Le Pen səsləndirmişdi. Təbii ki, ruslar belə xanımı "sevməyib, neyləsin"?

...Deməli, bu gün isə Fransa prezidentliyinə namizəd xanım başqa tezislə gəlib. Belə ki, "BFM" televiziya kanalına müsahibə verən Le Pen Krımı hələ də rus hesab etdiyini və Ukraynaya səfər qadağasına görə peşman olmadığını bildirib

"...Mən heç peşman deyiləm, çünki Krımın statusu ilə bağlı qərar referendumda qəbul edilib". Qeyd edim ki, SİA bu barədə "TASS"a istinad edir.

Beləliklə siyasətçi xanım qeyd edib ki, o, yaxın vaxtlarda Ukraynaya getməyəcəyini bildirib. (...deyim ki, mən onun bu gün Ukraynada bu qədər həsrətlə gözlənildiyini heç bilmirdim-A.B.) Bununla belə, o, seçiləcəyi təqdirdə qadağanın aradan qaldırılacağına və Ukraynaya səfər edəcəyinə ümid etdiyini bildirib.

Le Pen həmçinin bildirib ki, Ukrayna münaqişəsi bitənə qədər Rusiyaya da səfər etməyi planlaşdırmır.

Bundan əlavə, prezidentliyə namizəd 2014-cü ildə Krımda "keçirilən" referendumundan sonra qəbul edilən sanksiyaların Rusiyaya zərər verməsədə, amma fransız fermerlərinə təsir etdiyini etiraf edib.

Onu da bildirim ki, Le Pen Ukraynanın Avropa Birliyinə üzv ola biləcəyinə də inanmadığını bildirir. Onun fikrincə, avropalılar Ukraynanı Avropa İttifaqında görmək istəmirlər. Yəni Kiyevə verilən ümidlər fifalodur.

Yeri gəlmişkən xatırladım ki, Fransada prezident seçkilərinin birinci turu aprelin 10-da keçirilib. Nəticədə hazırkı prezident Emmanuel Makron 27,84 onun əsas rəqibi Marin Le Pen isə 23,15 faiz səs toplayıblar.

Yuxarıda dediyimiz kimi, Makron və Le Pen aprelin 24-də keçiriləcək səsvermənin ikinci turunda yenidən görüşəcəklər.

***Ağasəf Babayev***

# Bayden:
## "Putin soyqırım törədib"

**Ayova ştatındakı çıxışında Bayden ABŞ-da enerji xərclərinin artımını dəyərləndirib və Rusiya prezidenti Vladimir Putini tənqid edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, yanacaq qiymətlərinin sürətlə artması ilə əlaqədar administrasiyasının gördüyü tədbirləri izah edən Bayden amerikalıların benzin üçün ödədiyi məbləğ, "bir diktatorun dünyanın hansısa küncündə müharibə elan edib soyqırım törətməsindən" asılı olmamalı olduğunu bildirib.**

Bayden daha sonra jurnalistlərə, "Ukraynada edilənləri soyqırım adlandırdım, çünki bunun sübutu getdikcə artır" deyib. ABŞ prezidenti bildirib ki, Ukraynada soyqırımın olub-olmamasına hüquqşünaslar qərar verəcək.

***Ləman Əlizadə***





# "Müharibə Rusiyanın beynəlxalq birlikdən təcrid olunması ilə nəticələnəcək"

**"Ukrayna savaşından öncə onun çox da uzun çəkməyəcəyi ehtimal edilirdi. Əksəriyyət hesab edirdi ki, Ukrayna ordusu Rusiyanın nəhəng hərbi potensialı qarşısında duruş gətirə bilməyəcək". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.**

Onun sözlərinə görə, hətta Rusiya siyasi dairələri savaşın ilk saatlarında ən uzağı üç gün ərzində paytaxt Kiyevi ələ keçirib, Ukraynanı kapitulyasiyaya məcbur edəcəklərini iddia edirdilər: "Lakin Zelenskinin qətiyyəti, Ukrayna xalqının müqaviməti və Rusiyanın çox ümid etdiyi Ukrayna vətəndaşı olan rusların belə bu müharibədə Rusiyanı dəstəkləməməsi nəzərdə tutulan planın həyata keçirilməsinə imkan vermədi. Mövcud nəticələr Rusiyanın artıq məğlub tərəf olduğunu göstərir. Çünki Kreml sürətli işğal planını reallaşdırılmağa nail ola bilmədi. Əksinə, çoxlu sayda canlı qüvvə və hərbi texnika itirərək savaşın ilk günlərində işğal etdiyi bəzi Ukrayna ərazilərindən geri çəkilmək məcburiyyətində qaldı. İndi savaşın ilk həftəsindən fərqli olaraq, Kreml Ukraynaya qarşı sülh şərtlərini ciddi şəkildə ixtisar etmək məcburiyyətində qalıb. Artıq ilk günlərində elan edildiyinin əksinə olaraq, Kreml Ukraynada hakimiyyəti dəyişmək hədəfindən də imtina edib. Hazırdakı vəziyyət ondan ibarətdir ki, Kreml Ukraynaya qarşı savaşa başlamaqla, nə qədər böyük strateji səhvə yol verdiyini anlayıb ona görə də, geri çəkilərək, öz qoşunlarını yalnız Donbas bölgəsində, Ukraynanın şərqində və cənubunda cəmləşdirməyə başlayıb. Bu isə yaxın vaxtlarda məhz həmin bölgələrdə müharibənin yeni dalğasının başlanacağını və şiddətli döyüşlərin gedəcəyini proqnozlaşdırmağa imkan verir.

Döyüşlərin nə ilə nəticələnəcəyini və ümumiyyətlə, Rusiyanın Ukraynaya müdaxiləsinin nə ilə nəticələnəcəyini dəqiq demək mümkün olmasa da bir şey dəqiqdir ki, Rusiya-Ukrayna müharibəsi Rusiyanın iqtisadi cəhətdən çökməsi, beynəlxalq birlikdən təcrid olunması ilə nəticələnəcək. Belə ki, bu müharibənin nəticəsində ən çox uduzan Rusiya olacaq. Çünki beynəlxalq sanksiyaların dağıdıcı təsiri hər keçən gün artır və Rusiya iqtisadiyyatını defolt həddinə çatdırıb. İkinci bir tərəfdən bu müharibə iki dövləti və xalqı bir daha bir araya gəlməyəcək şəkildə ayırdı. Rusiya bəlkə də Donbas ərazisini qopara bilər, amma Ukraynanı tamamilə, birdəfəlik itirdi. Halbuki Putin bu savaşı Donbasın qalan hissəsini də almaq üçün yox, bütün Ukraynanı tabe etdirmək niyyəti ilə başlatmışdı. Müharibə Rusiyanın hərbi qüdrəti ilə bağlı təsəvvürləri də azaltdı. Artıq indiki Rusiyanın hərbi potensialı o qədər də çəkindirici gəlmir və nəhayət Rusiyanın beynəlxlaq nüfuzu ciddi şəkildə yara aldı".

Politoloq bildirib ki, Ukraynanı da bu mərhələdə savaşın qalibi hesab etmək olmaz: "Çünki ölkə ağır dağıntılara məruz qalıb. Müharibə dövründə Ukrayna iqtisadiyyatına 650 milyard dollardan çox zərər dəyib və Ukraynanın bərpa olunmasına bundan sonra yəqin ki, həm onilliklər, həm də külli miqdarda maliyyə vəsaiti lazım gələcək.

İndiki mərhələdə Rusiya - Ukrayna müharibəsinin bir qalibi var, o da ABŞ-dır. ABŞ Ukrayna savaşında özünün bir çox hədəflərinə çatmış oldu. Əvvəla Ağ Ev özünün əsas düşmənlərindən hesab etdiyi Rusiyanı bataqlığa çəkməyi bacardı. İkincisi, ABŞ-ın orbitindən çıxmağa cəhd edən Avropa ölkələrini Rusiya təhlükəsi ilə qorxudaraq, yenidən öz təsir dairəsinə salmağa müvəffəq oldu. Üçüncüsü, Avropa Birliyi ölkələrini Ukraynaya silah-sursat və maliyyə-iqtisadi yardım göstərmək məcburiyyətində buraxmaqla, onların Rusiya ilə perspektiv əlaqələrinə birdəfəlik son qoydu. Nəhayət, Ağ Ev Ukrayna savaşı sayəsində NATO-nu da xilas etdi və ya bu hərbi-siyasi alyansın ömrünü uzatdı. Halbuki, Ukrayna savaşından öncə NATO-ya üzv olan Avropa Birliyi ölkələri bu qurumun mövcudluğuna artıq ehtiyac olmadığını iddia edirdilər. Hətta NATO-ya ödənilən külli miqdarda üzvlük haqları hesabına Avropa Birliyi ölkələrinin ortaq ordusunun yaradılması ideyasının da müzakirəsinə başlamışdılar. Anlaşılan odur ki, Avropa Birliyi ölkələri bundan sonra uzun müddət NATO-nun ləğv edilməsi barədə danışmağa cəsarət etməyəcəklər".

***Səbinə Hüseynli***

# AZAD EDİLMİŞ

## torpaqlarda bərpa işlərinin aparılmasında elektrik təchizatı başlıca amildir

**30 il işğal altında qalmış torpaqlarımızda düşmən daşı daş üstə qoymayıb. Bütün inzibati və ictimai binalar, mədəniyyət obyektləri, tarixi və dini abidələr, evlərimiz kimi, kommunikasiya sistemi də dağıdılıb. 44 günlük Vətən müharibəsini Zəfərlə başa vuran dövlətimiz tərəfindən müharibədən dərhal sonra azad edilmiş ərazilərimizdə böyük bərpa işlərinə başlanılıb.**

Bu işlərin əsasını isə həmin ərazilərin elektrik enerjisi ilə təchizatı təşkil edir. Çünki bu torpaqlarda digər bərpa və quruculuq işlərinin həyata keçirilməsi elektrik enerjisindən birbaşa asılıdır. Aprelin 12-də Prezident cənab İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə də dövlətimizin başçısı azad olunmuş torpaqlarımızın elektrik təchizatı ilə bağlı məsələlərdən geniş şəkildə bəhs edib, bununla bağlı tapşırıqlar verib, çağırışlar edib.



### Düşmən torpaqlarımızı tərk edərkən 30-dan çox elektrik stansiyasını dağıdıb

Bu il elektrik təchizatı ilə bağlı işlərin davam etdiriləcəyini vurğulayan ölkə Prezidenti demişdir ki, azad edilmiş torpaqlarda keçən il 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilmişdir. İkisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcər rayonunda Lev çayı üzərində. Mənfur düşmən torpaqlarımızı tərk edərkən 30-dan çox elektrik stansiyasını dağıdıb, yandırıb, o stansiyaların qalıqları orada qalıbdır. Xüsusilə Kəlbəcər, Laçın rayonlarında olarkən bunu hər kəs görə bilər. Biz keçən il bu stansiyaların bərpasına başlamışıq. Bu il beş stansiya "Azərenerji" tərəfindən bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq.

**Prezident İlham Əliyev:** "Azad edilmiş ərazilərdə bu il elektrik təchizatı ilə bağlı işlər davam etdiriləcək"



### Qalan stansiyaların bərpası və ondan sonra işlənməsi sahibkarlar tərəfindən olsa, daha yaxşı olar

Dövlət başçısı müşavirədə "Ancaq qalan stansiyaların bərpası və ondan sonra işlənməsi sahibkarlar tərəfindən olsa, daha yaxşı olar",- demişdir. Çünki əlbəttə, dövlət də bu işi öz üzərinə götürə bilər, ancaq dövlətin digər başqa xərcləri çoxdur - bu, birincisi. İkincisi, bu, sahibkarlar üçün də əlverişli investisiya ola bilər. Nəzərə alsaq ki, azad edilmiş bütün bölgələr bu gün Azərbaycanın digər bölgələri ilə elektrik xətləri ilə birləşdirilib, ona görə orada istehsal olunacaq enerji ümumi sistemə daxil ediləcək.

Prezident cənab İlham Əliyev: "Mən hesab edirəm ki, sahibkarlar üçün bu, çox cəlbedici ola bilər. Mən bilirəm ki, İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası bu işlə məşğuldurlar və təkliflər də verildi. Hesab edirəm ki, hər bir stansiya üzrə təkliflər verilsin və bəlkə bu müşavirədən sonra sahibkarlar da bu məlumatı məndən eşidib daha da həvəsli olacaqlar. Yaxşı olar ki, bu məsələ ilə maraqlanan sahibkarlar üçün qalan stansiyaların yerləri ilə bağlı xüsusi bir təqdimat keçirilsin, təkcə ermənilər tərəfindən dağıdılmış stansiyalardan söhbət getmir. Hazırda xüsusilə, Kəlbəcər, Laçın rayonlarında külək elektrik stansiyalarının tikintisi ilə bağlı xarici şirkətlər bizə müraciət edirlər. Əgər xarici şirkətlər üçün bu, maraqlıdırsa, deməli, burada mənfəət olacaq. Yerli şirkətləri də cəlb etməliyik, ya xarici şirkətlərlə birlikdə, ya da ki, ayrı-ayrılıqda. Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür. Yəni, bütün bunlardan biz səmərəli şəkildə istifadə etməliyik. Həm bərpaolunan enerji növlərinin ümumi enerji balansımızdakı payını 30 faizə artırmalıyıq, - mən bu göstərişi vermişdim, bəlkə də gələcəkdə daha çox olacaq, - həm də ki, təbii qaza qənaət edib onu indiki yüksək qiymətlərlə ixrac edə biləcəyik".

### Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilmişdir

Prezident cənab İlham Əliyev müşavirədə onu da qeyd edib ki, artıq bütün bölgələri birləşdirən xətlər var. Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilmişdir. Bu, çox böyük göstəricidir. Eyni zamanda, ən çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkildi - Daşkəsəndən Kəlbəcərə. Orada dağların hündürlüyü 3500 metrdir, ağır, çətin şəraitdə, qış aylarında biz bunu bacardıq. "Azərenerji"nin mütəxəssisləri yüksək qiymətə layiqdirlər. Bu il "Xudafərin" və "Qız qalası" Su Elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndirilməlidir. İran İslam Respublikası ilə danışıqlar aparılır və hesab edirəm ki, daha da sürətlə aparılmalıdır ki, biz tezliklə burada da razılığa gələk. Çünki bu stansiyaların potensialı çox böyükdür - 240 meqavat gücündədir və bu stansiyalar inşa ediləndən sonra bunun yarısı bizə çatacaq. Beləliklə, biz bu imkanlardan da istifadə edə bilərik. "bp" şirkəti ilə Cəbrayılda Günəş Elektrik Stansiyasının tikintisi üzrə danışıqlar gedir. Ümid edirəm ki, yaxın gələcəkdə bir nəticə də olacaq. Hesab edirəm ki, bu stansiyanın çox böyük potensialı olacaq.

### Biz dünyanın aparıcı xarici şirkətlərindən çoxlu təkliflər alırıq

Dövlət başçısı bərpa olunan stansiyaların gücündən də danışaraq qeyd edib ki, bütövlükdə artıq bu rəqəmi mən səsləndirmişdim. Təkcə azad edilmiş torpaqlarda bərpaolunan stansiyaların 9 min meqavatdan çox potensialı var və biz dünyanın aparıcı xarici şirkətlərindən çoxlu təkliflər alırıq. Nəzərə alsaq ki, bizim qonşu ölkələrlə elektrik xətləri mövcuddur və ixrac imkanlarımız genişlənir və keçən il elektrik enerjisinin ixracatı 2020-ci ilə nisbətdə daha da artıb. Burada doğrudan da həm ölkə üzrə, həm Xəzər dənizini nəzərə almaq şərti ilə çox unikal bir potensial var. Amma mən bu gün azad edilmiş torpaqlarda görüləcək işlər haqqında danışarkən, məhz bu məsələni diqqətinizə çatdırmaq istərdim. Eyni zamanda, Zəngilandan İran üzərindən Naxçıvana və oradan yenə də İranın enerji sisteminə və Türkiyəyə elektrik xətlərin çəkilişi də gündəlikdə duran məsələlərdəndir.

### Memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa var

Keçən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı memorandum imzalandığını vurğulayan dövlət başçısı eyni zamanda, o memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəaların olduğunu da bildirmişdir. Prezident demişdir: "Ona görə biz bu işlərə də tezliklə başlamalıyıq. Hər halda, Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər".

Bu gün azad edilmiş torpaqlarda aparılan bərpa işləri Azərbaycanın qüdrətli bir ölkə olduğunun göstəricisidir. Ağır müharibədən çıxmış bir ölkə üçün belə böyük işlərin görülməsi bunu bütün dünya qarşısında təsdiq edən amildir. İndi hər bir azərbaycanlı qürur duyur ki, həm hərbi, həm iqtisadi gücü ilə dünyanın diqqətini cəlb edən ölkənin vətəndaşıdır. Biz torpaqlarımızın azad olunması üçün nə qədər maraqlı idiksə, həmin torpaqların tezliklə bərpasını da bir o qədər arzulayırıq. Çünki bu bərpa işləri yurd həsrətli insanların ata-baba torpaqalarına qayıtmalarını şərtləndirən amildir.

***Mətanət MƏMMƏDOVA***

# Mövcud vəziyyət ordunu daha da gücləndirməyi tələb edir

“Prezident İlham Əliyevin sədrliyi ilə 12 aprel 2022-ci il tarixdə cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə irəli sürdüyü fikirləri bir çox mühüm məsələlərlə əhatə olundu və eyni zamanda, 2021-ci ili qiymətləndirərkən dövlət başçımız bəyan etdi ki, bu il ölkəmizin həyatında çox əlamətdar il kimi də tarixə düşüb. Belə ki, ötən il qarşıya qoyulan əsas məqsəd kimi, azad edilmiş torpaqlarda bərpa işlərinə start verilib, eyni zamanda, beynəlxalq müstəvidə yeni reallıqlarımız qəbul olunub”. Bu fikirləri SİA-ya YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov mövzu ilə bağlı açıqlamasında deyib.

Onun sözlərinə görə, postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki,qarşıya qoyulmuş bütün vəzifələr icra edilib və dövlətimizin başçısı xatırladıb ki, beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq davam edib və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul ediblər: ”Belə ki, BMT xətti ilə Şuşa şəhərində beynəlxalq tədbir keçirilib, Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir baş tutub. Cənab Prezident bu barədə danışarkən vurğulayıb ki, bu, çox əlamətdar hadisə idi və bu reallıq bir daha onu göstərdi ki, nüfuzlu beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı və s. qurumlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyirlər”.

”Prezident İlham Əliyev Avropa İttifaqı ilə münasibətlərin müharibədən sonra daha intensiv xarakter aldığını da vurğulayıb”, deyən YAP Qəbələ rayon təşkilatının sədri fikirlərinə əlavə olaraq qeyd edib ki, Avropa İttifaqı



da postmünaqişə dövrünün reallıqlarını qəbul edir: ”Prezident İlham Əliyevin Brüsselə son səfəri zamanı imzalanmış yekun kommunikedə ”Dağlıq Qarabağ” adı yoxdur. Münaqişə həll olunub. Bu gün isə Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə çox ciddi şəkildə və qərəzsizliklə məşğuldur və son aprel görüşündə - 6 aprel tarixində keçirilmiş görüşdə bu məsələlər müzakirə edilib”.

Abil Ağasəfov onu da bildirib ki, birinci rübün yekunları qiymətləndirərkən Prezident İlham Əliyev ölkəmizin iqtisadi göstəricilərinin də çox müsbət olduğunu vurğulayıb: ”Dövlət başçımızın sözlərinə görə, ümumi daxili məhsul 6,8 faiz, qeyri-neft iqtisadiyyatı 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir, ancaq qeyri-neft sənaye istehsalında artım 18 faizdən çoxdur. İqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektorundan asılılığın azaldılması, həm ümumi daxili məhsuldakı payının, həm ixracdakı payının aşağı düşməsi - bütün bunlar iqtisadiyyatımızın inkişafını göstərir. Habelə, ölkəmizin xarici ticarət dövriyyəsi 60%-dən çox artıb. İxrac təxminən iki dəfə artıb. Bütün bu nəticələr Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan geniş miqyaslı iqtisadi ilahatların nəticəsində əldə olunmuşdur”.

YAP Qəbələ rayon təşkilatının sədrinin sözlərinə görə, Prezident İlham Əliyev qeyd etmişdir ki, bütün bu nailiyyətlər Azərbaycanın daxili gücünün hesabına əldə olunub və heç kimdən bir manat dəstək almamayı: ”Azad edilmiş torpaqlar da 100% daxili imkanlar hesabına bərpa olunur. Xarici şirkətlər yalnız podratçı kimi işləyir. Bizə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra”

Abil Ağasəfov sonda onu da əlavə edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik və praqmatik rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən hərtərəfli düşünülmüş, balanslaşdırılmış xarici siyasət, ölkəmizdə həyata keçirilən geniş miqyaslı siyasi və iqtisadi islahatlar nəticəsində, sosial-iqtisadi sahədə, eyni zamanda beynəlxalq əməkdaşlıq sahəsində böyük uğurlar qazanılıb. ”Söz yox ki, bundan sonra da Azərbaycan öz gücü hesabına qarşıya qoyulmuş bütün məqsədlərinə çatacaq və bizi qarşıda daha böyük perspektivlər, uğurlu imkanlar və inkişaf mühiti gözləyir”, deyə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov fikirlərini sona çatdırarkən vurğulayıb.

# “Ermənistan bu şərtlərə nə qədər tez əməl etsə...”

”Azərbaycan dövləti sülh danışıqlarına başlanması və bölgədə kommunikasiyaların açılması üçün Ermənistana bir neçə dəfə şans verib. Amma təəssüf ki, Ermənistan rəhbərliyi bu şanslardan yararlana bilməyib. Yaxşı olardı ki, Paşinyan hökuməti bu dəfə ciddi düşünsün və Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi sonuncu şansdan istifadə etsin”. Bu fikirləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktor müavini, siyasi ekspert Sahil Kərimli bildirib.

Onun sözlərinə görə, sülh razılaşmasına əməl olunmasa Ermənistanı heç kim, hətta havadarları da xilas edə bilməyəcək: ”Azərbaycanın təklif etdiyi şərtlər ilk növbədə Ermənistanın özünə hava və su kimi lazımdır. Çünki, Azərbaycan dövləti ilə sülh müqaviləsinin imzalanması, sərhədlərin müəyyənləşməsi, ərazi bütövlüyü və suverenliyin tanınması həm də Ermənistanın bir dövlət kimi varlığına təminat verir, gələcək inkişafını şərtləndirir. Rəsmi Bakı həmişə olduğu kimi İrəvana bölgədə sülh və təhlükəsizlik, region iqtisadiyyatına inteqrasiya, inkişaf və tərəqqi, mehriban qonşuluq münasibətləri təklif edir. Ermənistan bu şərtlərə nə qədər tez əməl etsə, bir o qədər çox qazanar. Hazırda Ermənistan geriyə dönüşü olmayan yoldadır. İrəvanın yeganə düzgün seçimi Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşması olmalıdır. Bu reallığı Paşinyan hökuməti də yaxşı anlayır. Lakin, görünən odur ki, Ermənistandakı revanşist və separatçı qüvvələr - konkret olaraq Azərbaycan xalqına qarşı hərbi cinayətlər törətmiş bəlli bir qrup sülh danışıqlarına mane olmaq istəyir. Zənnimcə, bütün bu cəhdlər əbəsdir. Çünki, Azərbaycan Prezidentinin qətiyyətli mövqeyi ortadadır və cənab İlham Əliyevin qarşıya qoyduğu məqsədlərə çatacağına şübhə yoxdur. Ermənistan istənilən yolla sülh danışıqlarına, Zəngəzur dəhlizinin açılmasına və ümumilikdə üçtərəfli bəyanatların şərtlərini yerinə yetirməyə məcbur ediləcək. Hesab edirəm ki, Ermənistan rəhbərliyi bunu yaxşı dərk edir və tezliklə biz konkret müsbət nəticələrin şahidi olacağıq”.



***Abutel İlhamqızı***

ANALİTİK + AKTUAL

# Paşinyanın

## yeganə çıxış yolu Bakıdan keçir

### Yaxud, Ermənistandan Qarabağ erməniləri üçün "planka" səviyyəsi

**Ermənistanın baş naziri Nikol Paşnyanın ölkə parlamentindəki qalmaqallı çıxışı və eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı ”status” məsələsini də paralelləşdirməsi Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın narazılığı ilə nəticələndi. Daha dəqiq desək, cənab Klaar narazılığını belə ifadə edib ki, onun təmsil etdiyi təşkilat prosesin irəliləməsinin əsas vasitəsi kimi məhz ərazi bütövlüyünün tanınmasında və sülh sazişinin imzalanmasında görür.**



### Paşinyan qarabağlı ermənilərin təhlükəsizlik qarantının məhz Bakının olduğunu bəyan edir

Əbəs deyil ki, son günlər istər Ermənistanın revanşçı müxalifəti, istərsə də Qarabağdakı separatçı-quldur rejimin cinayətkarları elə-belə, durduqları yerdə təlaşlanmayıblar. Və o da sirr deyil ki, Ermənistan həm maliyyə, həm də logistik cəhətdən Qarabağdakı azsaylı erməniləri təmin edir, bu vasitələrlə öz təsirlərini göstərir, həmçinin özlərindən asılı vəziyyətdə, daha açıq desək, girovluqda saxlayırlar. Yəni Paşinyan faktiki olaraq qarabağlı ermənilər üçün bu dəfə Azərbaycanın tərkibində ”status” istəyir və etiraf edir ki, onların təhlükəsizliyinin qarantı da məhz Bakıdır. Belə olan halda Ermənistan:

- Azərbaycandan sülh müqaviləsi alır və diplomatik münasibətləri bərpa edir, Bakı isə İrəvan qarşısında söz sahibi olaraq qalır
- Türkiyə ilə sərhədlərini açır və diplomatik münasibətlərini bərpa edir, İrəvan-Ankara arasında yeni bağlar yaranır
- Şərq-Qərb vektorunda kommunikasiyalar açılır, növbəti perspektivli layihələrə qoşulmaq imkanı əldə edilir
- Ziddiyyətli məsələlər məhz siyasi-diplomatik həll yolları ilə çözülür, Ermənistan təcrid vəziyyətindən çıxarılır
- Orta perspektivdə subyektivlik artır və s...

Belə olan halda isə Azərbaycanın motivasiyası da kifayət qədər aydın görünür: Ermənistan tərəfindən ərazi bütövlüyü tanınır və bunun ardınca Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası prosesinə başlanılır, eləcə də daxili işlərinə də heç bir xarici müdaxilələr olmur.

### Erməni baş nazirinin Kreml sınağı - 19 aprel 2022-ci il

Aprelin 19-da Paşinyanı Kremldə çətin sınaqlar gözləyir və o, ilk növbədə, Qarabağ erməniləri məsələsini öz üzərindən atmaqla Rusiya-Azərbaycan müstəvisinə çıxarmaq istəyir. Erməni baş nazir həm də Azərbaycanla münasibətlərini yaxşılaşdırmaq, sülh sazişini imzalamaq, iddialardan əl çəkmək, yerdə qalan məsələləri isə Rusiyanın öhdəsinə buraxmaq istəyir. Və beləliklə, erməni baş naziri məhz həmin üsulla az da olsa Rusiyanın sıxma-boğmasından xilas olmağa çalışır.

Əslində, belə bir cəhd Cənubi Qafqaz regionunda Azərbaycanla Türkiyənin mövqelərinin daha da gücləndirilməsinə yönəlir. Daha dəqiq desək, Ermənistanın Rusiyanın ”caynaqlarından” qurtulması regiondakı mənzərəni konstruktivik istiqamətinə doğru yönəldir. Və əbəs deyil ki, Paşinyan parlamentdəki çıxışı zamanı Ermənistan dövlətçiliyinin təhlükəyə düşməsi ehtimalları haqqında fikir bildirdi, dərhal əlavə etdi ki, KTMT sərhəd toqquşmalarında (ötən ilin noyabr-dekabr aylarında) kənarda dayandı və iflasa uğradığını sübut etdi, yəni bundan sonra Ermənistanın təhlükəsizliyinə təminat yoxdur.

### İlham Əliyev Qarabağ erməniləri haqqında: ”Onlar da anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar”

Daha bir məsələ isə Paşinyanın parlamentdəki çıxışı zamanı 2020-ci ildəki səhvlərini yenidən təkrarlamaq istəməməsi ətrafındakı fikirləri oldu. Yəni yenidən müharibə olacağı halda Ermənistanın tamamilə xəritədən silinməsi təhlükəsinin mövcud olması barədə fikirləri, əslində, Paşinyanın mövqeyinin nədən ibarət olduğunu göstərdi. O yaxşı bilir və dərk edir ki, müharibə olarsa, rəhbərlik etdiyi ölkə və dövlət qısa zamanda itəcək.

Belə bir şəraitdə Azərbaycanın Qarabağdakı erməniləri hansı yolla reinteqrasiya etməsi mexanizm və üsulları maraq doğurur. Əslində, həmin mexanizmlər hazırdır və məqsədlər də açıq-aydın ortadadır.

Biz bu məqamda Prezident İlham Əliyevin aprelin 12-də keçirdiyi müşavirədəki fikirlərini də xatırlada bilərik. ”Ümid edirik, onlar da anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar. Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər yaxşı olacaq”, deyə dövlətimizin başçısı fikirlərini qəti şəkildə ifadə edib.

Beləliklə, fakt budur ki, Paşinyanın yeganə çıxış yolu əvvəl-axır Bakıdan keçir və o, Qarabağ erməniləri üçün hazırladığı ”plankasını” qüvvədə saxlamağa nail olacaqsa, habelə Moskvadakı sınaqdan da çıxmağı bacaracaqsa, sonuncu xilas yolundan - Bakının kölgəsindən rahatlıqla keçə bilər.

***Rövşən RƏSULOV***

| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin<br>Mühasibat Balansı<br>31 dekabr 2021-ci il tarixinə | | | |
|---|---|---|---|
| *Azərbaycan Manatı ilə məbləğlər tam məbləğə qədər yuvarlaqlaşdırılıb* | | | |
| | **Qeyd** | **2021** | **2020** |
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | | 2.003.195 | 2.007.374 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | ***2.003.195*** | ***2.007.374*** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | | 502.929 | 561.751 |
| Qısamüddətli debitor borcları | | 560.884 | 613.091 |
| Digər qısamüddətli debitor borclar | | 980.000 | 0 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 3.080.822 | 3.925.003 |
| Sair qısamüddətli aktivlər | | 22.753 | 26.109 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | ***5.147.389*** | ***5.125.953*** |
| **CƏMİ AKTİVLƏR** | | **7.150.583** | **7.133.327** |
| **KAPİTAL** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 1903.032 | 1.903.032 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 3.110.467 | 2.878.703 |
| Əlavə kapital | | 2.108.236 | 2.108.236 |
| **CƏMİ KAPİTAL** | | **7.121.735** | **6.889.972** |
| **ÖHDƏLİKLƏR** | | | |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli kreditor borcları | | 8.721 | 4.273 |
| Vergi və sair məcburi ödənişlər üzrə borclar | | 20.127 | 239.083 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | ***28.848*** | ***243.356*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **28.848** | **243.356** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **7.150.583** | **7.133.328** |

| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin<br>MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI (xərclərin xüsusiyyəti üzrə)<br>31 dekabr 2021-ci il tarixinə | | | |
|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | | | |
| | **Qeyd** | **2021** | **2020** |
| Əsas əməliyyat gəliri | | 5.281.211 | 5.224.980 |
| Satışın maya dəyəri | | (472.147) | (608.445) |
| **Ümumi mənfəət** | | **4.809.064** | **4.616.534** |
| Sair əməliyyat gəlirləri | | 858 | 0 |
| Sair əməliyyat xərcləri | | 0 | 0 |
| Maliyyə gəlirləri | | 62.825 | 68.175 |
| Maliyyə xərcləri | | | |
| Ümumi və administrativ xərclər | | (1.268.219) | (1.341.296) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **3.604.528** | **3.343.413** |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **3.604.528** | **3.343.413** |
| Mənfəət vergisi | | **(735.782)** | (684.383) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **2.868.746** | **2.659.030** |

| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin<br>PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI<br>31 dekabr 2021-ci il tarixinə | | |
|---|---|---|
| | **2021** | **2020** |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Xalis mənfəət /(zərər) | 2.868.746 | 2.659.030 |
| İnvestisiya və maliyyələşmə fəaliyyətində aid olanlar | | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 58.230 | 74.418 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| Ehtiyatlar üzrə (artım)/azalma | 58.822 | (7.784) |
| Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | 52.207 | 1.279.684 |
| Digər debitor borclaında (artım)/azalma | (980.000) | 82.553 |
| Sair qısamüddətli aktivlərdə (artım)/azalma | 3.355 | 209.268 |
| Əməliyyat kreditor borclarında artım/(azalma) | 4.448 | 658 |
| Vergi və sair məcburi ödənişlər üzrə artım | (218.956) | 239.083 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1.846.852** | **4.536.911** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli maddi və qeyri maddi aktivlərin əldə edilməsi | (54.050) | (19.960) |
| Əsas vəsaitlərin təqdim edilməsindən gəlir | | |
| Kapiatllaşdırmada olan aktivlərə çəkilmiş xərc | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(54.050)** | **(19.960)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Verilmiş dividendlər | (2.636.983) | (1.800.000) |
| Kapital ehtiyyatlarından istifadə | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **(2.636.983)** | **(1.800.000)** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | **(844.181)** | **2.716.951** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **3.925.004** | **1.208.053** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **3.080.823** | **3.925.004** |

| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin<br>KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI<br>31 dekabr 2021-ci il tarixinə | | | | |
|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | | | | |
| | **Nizamnamə Kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Əlavə kapital ehtiyyatları** | **Cəmi Kapital** |
| **01.01.2020-ci il tarixə qalıq** | **1.903.032** | **2.019.673** | **2.108.236** | **6.030.942** |
| 2020-ci il üzrə xalis mənfəət | | 2.659.030 | | 2.659.030 |
| Verilmiş dvidentlər | | (1.800.000) | | (1.800.000) |
| **31.12.2020-ci il tarixə qalıq** | **1.903.032** | **2.878.704** | **2.108.236** | **6.889.972** |
| 2020-ci il üzrə xalis mənfəət | | 2.868.746 | | 2.868.746 |
| Verilmiş dvidentlər | | (2.636.983) | | (2.636.983) |
| **31.12.2021-ci il tarixə qalıq** | **1.903.032** | **3.110.467** | **2.108.236** | **7.121.735** |

**SƏRBƏST AUDİTOR**
**ALIYEV KÖÇƏRİ ƏMRAH OĞLU**
**MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)**

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

**"Bakı Ağırlaşdırıcılar" ASC-nin İdarə heyətinə**

Mən "**Bakı Ağırlaşdırıcılar**" ASC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti,mənfəət və zərər,məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).
Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Sərbəst auditor: K. Ə. Alıyev
Tarix: 08.04.2022

Sərbəst auditor Independent auditor

M.Y.

Bakı şəhəri, Nizami küç. 102
Mob: (050) 372 18 53

# Kurikulum tamamilə ləğv edildi?

**"Kurikulumun ləğv edilməsi qərarı onu göstərir ki, buraya qədər olan tədris proqramı yuxarı təhsil pilləsi üçün keçərli deyildi. Yəni biri-biri ilə uyğunsuzluq var idi. Buna görə də 2012-ci ildə qəbul edilmiş qərar qüvvədən düşdü. Bu, kurikulumun tam şəkildə ləğv olunması demək deyil". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.**

Onun sözlərinə görə, kurikulumun ləğvi məktəbəqədər olan təhsil müəssisələrində nəzərdə tutulur ki, buraya bağçalar da daxildir. Bu, onu deməyə əsas verir ki, yaxın 3-4 il sonra kurikulum sisteminin bütün təhsil pilləsində ləğv olunduğunu müşahidə edəcəyik: "Lakin 1-ci və 11-ci siniflərdə kurikulum saxlanılıb. Hal-hazırda verilən sərəncama bütün təhsil pilləsində kurikulum ləğv olunub demək doğru deyil. Burada kurikulumdan deyil, tamamilə yeni bir proqramdan istifadə olunacaq ki, bu barədə də təhsil naziri məlumat verəcək".



Elçin Əfəndi sözlərinə belə davam edib: "Kurikulum ləğv olunsa, bu, onu deməyə əsas verir ki, o gözləniləni doğrultmadı.

Mən bütün təhsil pilləsində kurikulumun ləğvini istəyərdim. Onun əvəzinə başqa təhsil proqramlarını tətbiq etmək daha məqsədəuyğundur. Şagirdlər kurikulumla yaxşı nəticə əldə edə bilmirlər. Onu da qeyd edim ki, kurikulumun uyğunlaşdırılması prosesi ola bilər. Amma istənilən halda bu yaxşı effekt verməyəcək. Biz kurikulumdan heç bir nəticə əldə edə bilmirik".

***Ayşən Vəli***

# "Paşinyan tərəddüd edir"

**"Ermənistanın Azərbaycanla sülh danışıqlarına getməsi ehtimalı əlbəttə var, amma bu məsələdə Paşinyan iqtidarının mövqelərinə hələ də təsir imkanları qalan sosial, iqtisadi və geosiyasi faktorlar qalmaqdadır". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.**



Onun sözlərinə görə, Brüsseldə tərəflər arasında AB-nın vasitəçiliyi ilə baş tutmuş məlum görüşdə Ermənistanın baş naziri Azərbaycanın irəli sürdüyü 5 şərti qəbul etdiklərini bildirdi: "Buna baxmayaraq ölkəyə qayıtdıqdan sonra hökumətin sonuncu iclasında Azərbaycanla perspektiv danışıqların, həm də paralel olaraq Qarabağdakı erməni separatçılarının statusu ilə bağlı müzakirələrin gedişatından asılı ola biləcəyi ilə bağlı verdiyi açıqlama göstərir ki, Paşinyan tərəddüd edir. O, danışıqları uzatmaqla Qarabağ ətrafında vəziyyətin qismən də olsa dəyişəcəyinə ümid edir. Ermənistan parlamentində keçirilən müzakirələrdə, istərsə də müxalifətin təşkilatçılığı ilə baş tutan məlum mitinqlərdə. Paşinyana qarşı çıxış edən erməni müxalifətinin Rusiya ilə bağlılığı faktoru nəzərə alınarsa, müxalifətin məlum mitinqlərdə iki mühüm vəzifəni qarşısında qoyduğu bəllidir. İlk olaraq Paşinyanı suçlayaraq siyasi dividentlərini və elektoral bazasını artırmaq, digər tərəfdən geosiyasi sifarişi yerinə yetirərək Paşinyana bölgədə əsas söz sahibinin kim olduğunu xatırlatmaq. Lakin Paşinyanın tərəddüdü və ehtiyatlı gedişləri ona həm də Qərbdən olan məlum mesajlarla da bağlıdır. Belə ki, Fransanın, ardınca ABŞ-ın Ermənistanda olan səfirləri tərəflər arasındakı danışıqlarda ATƏT-in Minsk qrupunun fəaliyyətinin bərpa olunması təklifləri ilə çıxış ediblər".

E.Manafov onu da bildirib ki, hazırda Ukraynada Rusiya və Qərb koalisiyası arasında getdikcə artmaqda olan gərginliyin fonunda, Rusiya prezidenti Putinin Qərbi qeyri-dost ölkələr kateqoriyasına aid etməsi kontekstində Qərbin belə bir açıqlaması suallar doğurmaya bilmir: "Ukraynada Rusiya ilə hətta hərbi qarşıdurmaya gedən ABŞ belə çıxır ki, Qarabağ probleminin həlli ilə bağlı məsələlərdə Rusiya ilə əməkdaşlığı mümkün sayır. Məhz bu kimi açıqlamalar Paşinyanı münasib vaxtı gözləməyə sövq edə bilər. Lakin bir şey də məlumdur ki, Rusiya Qərbin Qarabağda əməkdaşlığıla bağlı təkliflərinin arxasında gerçəkdən hansı niyyətlərin olduğunun mahiyyətinə varır, bəllidir ki, Qərb burada Rusiyanın daha fərqli təsir imkanlarına malik olması amilini nəzərə alır, burada Azərbaycan ordusunun qələbəsi nəticəsində dəyişmiş geosiyasi reallıqları qısa zamanda, həm də Ukraynadakı qarşıdurmanın müqəddəratına aydınlıq gətirmədən dəyişmək mümkün deyil, Qərbdəki məlum qlobal maliyyə mərkəzi buna görə bölgədə onun maraqlarına cavab verə biləcək şəraitin dəyişməsini gözləyir, bu maliyyə mərkəzinin satelliti olan Paşinyan da həmçinin. Lakin bölgə real gücə və çəkiyə malik olan tərəfin Azərbaycan olması da şübhəsizdir. Elə buna görədir ki, əvvəlki dövrlərdən fərqli olaraq Rusiya sülhməramlıları Qarabağa keçmək istəyən Ermənistan parlamentinin üzvlərinin qarşısını almış, Azərbaycanın bu məsələdə iradı olmadan bu məsələnin hüquqi həllinin olmadığını bildirmişlər. Digər tərəfdən, Ermənistan tərəfinin bütün səylərinə baxmayaraq, Fərrux yüksəkliyi ətrafında da vəziyyəti deeskalasiya etmək, burada Azərbaycan və Rusiya sülhməramlıları arasında insident yaratmaq da mümkün olmamışdır. Zira bu ilin fevral ayında Azərbaycanın Rusiya ilə münasibətləri müttəfiqlik səviyyəsinə gətirilməsi Rusiya tərəfindən də yüksək qiymətləndirilir, nəhayət, bölgədəki yeni geosiyasi reallıqlar Qərbdən fərqli olaraq Rusiyanı qane etdiyindən ATƏT-in Minsk qrupunun əvvəlki fəaliyyətinin bərpası üçün canfəşanlıq etməyəcək. Qərbə gəlincə, qoca qitənin enerji təhlükəsizliyi ilə bağlı amillər onu da Azərbaycanla münasibətləri əməkdaşlıq müstəvisi üzərində saxlamağa məcbur edəcək, bu mənada Paşinyanın vaxt qazanmaq üçün fərqli qütblərə boylanması perspektivdə ona heç nə vəd etmir və deməli, sülh danışıqlarına başlamaq onun üzərinə düşən əsas missiya olaraq qalmaqdadır".

***Gülyana***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# ABŞ Dövlət Departamentinin dabanyalayanları kimlərdir?

ABŞ Dövlət Departamentinin zaman-zaman Azərbaycana qarşı qərəzli hesabatlar təqdim etməsi ilk hal deyil və bu baxımdan, təəccüb etməyə də dəyməz. Çünki bu kimi vasitələr, ilk növbədə, anti-Azərbaycan xarakterli dairələr tərəfindən sifariş olunur və nəzərə alsaq ki, bu gün Amerikada kifayət qədər Azərbaycan əleyhinə işləyən düşmənlər mövcuddur, habelə həmin düşmənlərin bir qolu ölkəmiz daxilində "müxalifət" adlandırılan radikal qruplarla əlbirdirlər, onda hər şey gün kimi aydın olmağa başlayır. Eyni zamanda, biz ABŞ Dövlət Departamenti tərəfindən insan hüquqları və demokratik mühit ətrafındakı qərəzli, qeyri-obyektiv hesabatın yayıldığı zaman ona məhz AXCP, "Milli Şura", Müsavat, habelə xaricdəki xain qüvvələrin sevinclə münasibət bildirmələrini görərkən suyun haradan bulandığını dərhal aşkar edirik. Onlar həmin "qüvvələr", axud 30 ildir ki, özlərini müəyyən edə bilməyən sözdə "siyasi qruplardırlar" ki, fəaliyyətləri və məqsədləri heç də insan hüquqları, ya da demokratiya ilə bağlı deyil, əksinə, reallıqlara qara yaxıb, daldalanduqları adlar altında kirli maliyyə vəsaitləri əldə etməkdən ibarətdir.

### Əli Kərimli və onun kimiləri Azərbaycan xalqının hüquqlarının müdafiəsindən necə imtina etmişdilər?

Bu gün ABŞ Dövlət Departamentinin sözügedən hesabatından papağını göyə atıb "hakimiyyətə gələcəyik" tipli siyasi klounadalıq sərgiləyən Əli Kərimli unutmamalıdır ki, məhz 30 il boyunca hüquqları tapdanan və torpaqları işğal altında qalan Azərbaycan vətəndaşlarının yurd-yuvaları düşmən tapdağından azad olunarkən o və onun kimi digər ayağısürüşkən "müxalifətçilər" xalqın, siyasi partiyaların vahid şəkildə birləşməsini əks etdirən bəyanata imza atmadılar, onlar Azərbaycan xalqının hüquqlarının müdafiəsindən imtina etdilər!

### O "sənədi" hazırlayan amerikalıların filan yerlərini öpməyə, yeni ifadə ilə desək, dabanlarını yalamağa hazır olduqlarını göstərirlər!

Və bu, həmin Əli Kərimli və ətrafındakı lazımsız ölü siyasilərdirlər ki, qardaş Türkiyə dövləti ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi kimi əhəmiyyətli Bəyannamə imzalanarkən onlar bu prosesdən də yaxalarını kənara çəkdilər. Hər iki prosesdə, məhz Azərbaycan xalqının və dövlətinin hüquqlarının müdafiəsi, qorunması, bərpası reallıqları dayanırdı və onlar bu reallıqlara qarşı çıxdılar.

İndi isə ABŞ Dövlət Departamentinin, əslində, Azərbaycan dövləti üçün lazımsız bir əşya xarakteri bağışlayan "sənədinə" az qala biət edib, o sənədi hazırlayan amerikalıların filan yerlərini öpməyə, yeni ifadə ilə desək, dabanlarını yalamağa hazır olduqlarını göstərirlər!

Nə deyirik, özləri bilərlər, amma bir faktı da unutmamalıdırlar ki, belə davam edə bilməz və bir gün öz xainlik əməllərinə görə cavab verəcəklər və onda çox sevdikləri Dövlət Departamenti onları işlənmiş salfetka qismində zibil qutusuna atacaq. Onda da çox gec olacaq...

# "Nar" yenilənmiş satış və xidmət mərkəzini təqdim etdi

"Nar" Memar Əcəmi metrostansiyası yaxınlığındakı, M.Cəfərov 3005 ünvanında yerləşən ən böyük satış və xidmət mərkəzini tamamilə yeni konsepsiyada müştərilərin ixtiyarına verib. Mərkəzdə müştəri xidməti və satış vahid məkanda təqdim edilir. Mağazada ziyarətçilərə nömrələrin satışı, bərpası, eyni zamanda dublikatının çıxarılması da daxil olmaqla, müxtəlif növ xidmətlər göstərilir. Həmçinin mobil telefonların, cihazların və aksesuarların satışı da həyata keçirilir.

"Azerfon"un Baş İcraçı direktoru Qunnar Pankenin sözlərinə görə, şirkət müştəriyönümlü strategiyasının bir hissəsi kimi, həm Bakı, həm də bölgələrdəki bütün satış və xidmət mərkəzlərini yeniləməyi hədəfləyib: "Paytaxt və regionlar üzrə 40 "Nar" mağazasını tamamilə yeni konsepsiyada müştərilərimizin ixtiyarına vermişik. Müştərilərimizə ölkə ərazisində harada olmasından asılı olmayaraq, istənilən "Nar" mağazasında eyni mənzərə, eyni proses və sorğuların eyni şəkildə cavablandırılması təcrübəsi bəxş edirik. Müştərilərimizə daha yaxın olmaqla, məlumat və xidmətlərin daha rahat əldə edilməsini təmin edirik. Yenilənmiş satış və xidmət mərkəzlərimizdə müştərilərimizə ən qabaqcıl alış-veriş və üstün xidmət təcrübəsi göstəririk".

Qeyd edək ki, "Nar" müştəri yönümlülük dəyərlərinə sadiq qalaraq, bütün ölkə boyu eksklüziv diler və xidmət mərkəzlərini yeni konseptdə təqdim etməkdədir. Daha 27 "Nar" mağazanın təmir olunması planlaşdırılır. Sizə yaxın olan satış və xidmət mərkəzlərinin ünvanları haqqında ətraflı məlumatı www.nar.az/map internet səhifəsindən öyrənə bilərsiniz.




"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.

# Bu il məktəblərdə "Son zəng" tədbirləri keçiriləcək?

"İlk növbədə qeyd edim ki, 2020-ci ildən pandemiya səbəbindən orta ümumtəhsil məktəblərində son zəng tədbirlərinin keçirilməsi qadağan edilib. Nəzərə alsaq ki, 11-ci sinifi bitirən gənclərin həyatında bu hadisə bir dəfə olur və mütləq şəkildə qeyd edilməlidir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, buna ümidlə yanaşa bilərik ki, ölkədə bu il tədrisin yekununda Son Zəng tədbirləri keçirilə biləcək: "Bunu deməyə imkan verən bir neçə əsas var. Belə ki, artıq ölkə ərazisində toy və yas mərasimlərinin keçirilməsinə pandemiya dövrünün qaydaları çərçivəsində icazə verilir".

Kamran Əsədov sözlərinə belə davam edib: "Qeyd edək ki, bu il orta ümumtəhsil məktəblərindən 85 minə yaxın şagird məzun olacaq. Bu da kifayət qədər ciddi bir rəqəmdir. Dərslərin tam şəkildə bərpa olunduğunu nəzərə alsaq, bu, onu deməyə əsas verir ki, "Son Zəng" tədbirlərinin keçirilməsi ilə bağlı heç bir problem yoxdur. Sadəcə, burada pandemiya tələblərinin şərtləri ciddi şəkildə gözlənilməlidir. Hal-hazırda qapanmada olan məktəb də yoxdur".

***Ayşən Vəli***

# Qlobal ərzaq böhranı şəraitində Azərbaycanın hazırlıq səviyyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafi Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb.*

**Dünya iqtisadi böhranı getdikcə güclənir. Bu fonda əsas problemlərdən biri də ərzaq böhranıdır. Son 1 ildə qlobal ərzaq istehsalının azalması, həmçinin son vaxtlar Ukraynada davam edən müharibə ərzaq problemini getdikcə daha çox kəskinləşdirir. Azərbaycan da ərzaq sahəsidə əhəmiyyətli dərəcədə idxaldan asılı ölkədir. Son illərdə yerli istehsalın artmasına baxmayaraq hələ də idxaldan asılığımız qalır. Lakin Azərbaycanın bu böhrandan çıxmaq üçün potensial imkanları var.**

Bəs bu potensialdan necə istifadə olunur, hökumət iqtisadi inkişafı, xüsusən ərzaq istehsalında irəliləyişləri necə təmin edir, qlobal ərzaq böhranından ölkəmizin sığortalanması üçün hansı işləri görür? Dövlət başçısı cari ilin 1-ci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirəsində bu məsələlərə toxunub: ”Hər kəs yaxşı bilir ki, hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Bu proses bir neçə ay bundan əvvəl başlamışdır. Əlbəttə ki, Rusiya-Ukrayna müharibəsi bunu daha da sürətləndirib, xüsusilə nəzərə alsaq ki, Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları arasındadırlar və digər ərzaq məhsullarını dünya bazarlarına ixrac edirlər. İndi artıq təbii qıtlıq hiss olunur və hiss olunacaq. Bizim ərzaqlıq buğda ilə təminatımız, əlbəttə ki, diqqət mərkəzində olmalıdır. Hökumətə bu məsələ ilə bağlı göstəriş verilmişdir. Operativ tədbirlər görülüb və ehtiyatlar yığılır. Biz daha çox ehtiyat yığmalıyıq. Ancaq, eyni zamanda, bilməliyik ki, belə vəziyyət uzun müddət ərzində davam edə bilər və yəqin ki, davam edəcək. Ona görə burada, ilk növbədə, daxili təminatımız artmalıdır. Bu məsələ ilə bağlı göstərişlər verildi. Həm azad edilmiş torpaqlarda əkin işlərinin daha da genişmiqyaslı aparılması üçün göstərişlər verildi, həm də digər bölgələrdə. Əlbəttə ki, burada suvarma layihələrinin uğurla icrası böyük nəticələrə gətirib çıxara bilər. Amma hər halda indiki şəraitdə ərzaq qiymətlərinin qalxması və süni qiymət artımının qarşısının alınması məsələləri, hesab edirəm ki, ən vacib məsələlərdən biridir”.

Qeyd etməliyik ki Azərbaycan bir sıra ərzaq məhsullarını idxal etsə də, bir çox ərzaq məhsullarını da başqa ölkələrə ixrac edir. Son vaxtlar bu məhsulların ixracında artımlar qeydə alınıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov müşavirədə bununla bağlı bəzi rəqəmlər açıqlayıb. ”Azərbaycan cari ilin ilk rübündə daxili bazarı tam təmin etməklə yanaşı, müxtəlif ölkələrə 60 min ton müxtəlif çeşidli meyvələr, 37 min ton tərəvəz, 12 min ton şəkər, 3,5 min ton meyvə-tərəvəz emalı məhsulları ixrac etmişdir”.

Nazir bununla yanaşı idxal məhsulları üçün prosesin sadələşdirilməsi üçün görülən işlərə də qeyd edib. ”Biz həmin struktur asılılığımız olan məhsullar üzrə idxalın sadələşdirilməsi üçün müvafiq tədbirləri həyata keçiririk... Xüsusilə də kiçik və orta sahibkarlığa, ərzaq istehsalçılarına güzəştli dövlət maliyyələşməsinin təmin edilməsində kapital yardımının göstərilməsini təmin edirik.

Ölkə prezidenti müşavirədə çox mühüm bir məqama da toxunub: Mənə verilən məlumata görə, son 3 ayda inflyasiya 18 faizə qalxıb. Bu, əlbəttə ki, yüksək rəqəmdir. Amma onu da bilməliyik ki, bunun bir hissəsi idxal edilmiş inflyasiyadır. Çünki dünyada ərzaq məhsullarının və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsir edir. Ancaq, eyni zamanda, onu da bildirməliyəm ki, 3 ayda əhalinin gəlirləri təxminən 20 faiz artıb və əgər biz inflyasiyanı əhalinin gəlirləri ilə müqayisə etsək, burada yenə də real gəlirlər artmış olur. Ancaq o demək deyil ki, biz buna laqeyd yanaşmalıyıq. Ona görə antiinflyasiya tədbirlərinin görülməsi, gücləndirilməsi zəruridir. Əlbəttə ki, burada əsas məsələ süni qiymət artımının qarşısının alınmasıdır. Çünki belə hadisələrdə, belə geosiyasi vəziyyətdə bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar. Buna xüsusi diqqət göstərilməlidir”.



Baş nazir Əli Əsədov isə antiböhran tədbirlərini belə izah edib: ”Hələ pandemiya dövrünün başlanğıcında, mart ayından başlayaraq Sizin tapşırığınızla bu proseslər əsasən, ərzaq məhsulları və digər defisit məhsullar, o cümlədən respublikanın dərmanlar və tibb ləvazimatları ilə təchiz olunması istiqamətlərində aparıldı. Ukrayna-Rusiya müharibəsi ilə əlaqədar qiymətlər, taxılın qiyməti ən pik həddə qalxdı. Söhbət ancaq heç qiymətdən də getmir. Söhbət ondan gedir ki, bu gün ərzaq taxılı idxal etməyin öz prosesi var. Siz dediyiniz kimi, Ukrayna və Rusiyanın dünya taxıl istehsalında aparıcı rolları, Ukraynada bu il çətinliklər olacağını nəzərə alaraq bu ehtiyatları artırırıq. Bir məqamı da demək istəyirəm. Sizin tapşırığınızla yerli istehsal, idxaldan asılılığın azaldılması istiqamətində də konkret layihələr hazırlanır və burada fokusda olan tədbirlər yaxın dövrdə təqdim olunacaq. Qarabağda, işğaldan azad olunmuş ərazilərdə və digər böyük təsərrüfatlarda əkin işləri gedir... Biz də, ilk növbədə, öz daxili ehtiyatlarımıza baxırıq. Əgər artıq yerli istehsal, planlar varsa, onlara ixrac verirlər və sahibkarların İqtisadiyyat Nazirliyinə müraciətinə əsasən 5 gün ərzində operativ qaydada bunlara baxılır. Yəni, deyə bilərəm ki, bu gün Azərbaycanda əsas ərzaq məhsulları üzrə kifayət qədər ehtiyatlarımız var”.




Bir qədər əvvəl Nazirlər Kabinetinin bir sıra məhsullar üzrə ixracın tənzimlənməsi qərarı anti-böhran tədbilərindən biridir. Qlobal ərzaq ticarətindəki probemlər ölkəmizdə ərzaq ehtiyatlarının yığılması və qorunması işinin vacibliyini göstərir.

Müşavirədə dövlət başçısı ərzaq ehtiyatı yaratmağın vacibliyini və bu sahədə ciddi işlər görülməsinin əhəmiyyətini qeyd edib: ”Bu məsələ ilə bağlı danışarkən, biz, ilk növbədə, ərzaqlıq buğdanın istehsalını artırmalıyıq. Əlbəttə ki, ehtiyatları yığmalıyıq. Çünki bizdə ümumi taxıl istehsalı ölkə tələbatının 60 faizini təşkil edir, ərzaqlıq buğda ilə isə biz özümüzü cəmi 25 faiz təmin edirik. Ona görə məsələ qoyulub ki, ərzaqlıq buğda ilə biz özümüzü ən azı 70-75 faiz təmin edək. Buna nail olmaq üçün potensial var, imkanlar var - həm azad edilmiş torpaqlarda, həm ölkəmizin digər yerlərində. Həm bu il, həm gələn illərdə dövlət investisiya xərcləri artırılmalıdır. Eyni zamanda, sahibkarlara məqsədyönlü kreditlər, güzəştli kreditlər verilməlidir ki, məhz bu sahə inkişaf etsin. Çünki buğda əsas ərzaq məhsuludur. Bizim həm coğrafi yerləşməyimiz, iqlimimiz, eyni zamanda, bəzi yerlərdə torpağın keyfiyyəti və şərait imkan vermir ki, biz özümüzü bu gün buğda ilə yüz faiz təmin edək. Ancaq buna çalışmalıyıq və 6 ay keçməmiş biz azad edilmiş torpaqlarda indi böyük əkin işləri ilə məşğuluq. Təxirəsalınmaz tədbirlər nəticəsində ikinci dəfə əkin aparırıq və bu il haradasa 50 min hektarda əkin aparılacaq. Bu, çox yaxşı nəticədir. Həm azad edilmiş torpaqlarda, həm də bütün başqa yerlərdə məhsuldarlığı artıra biləcək tədbirlərə əlavə vəsait ayrılmalıdır. İlk növbədə, suvarma, suvarma sistemləri, gübrələr və digər məsələlər öz həllini tapmalıdır”.

Göründüyü kimi, həm dövlət başçısı, həm də hökumət üzvləri qlobal böhrandan ölkəmizin minimum itki ilə çıxması, əhalinin ərzaq problemi və bahalaşma ilə qarşılaşmaması üçün lazım olan bütün addımları atır. Ölkənin potensialından maksimum istifadə edilməsinə çalışılır, bu istiqamətdə ciddi proqram hazırlanır və həyatat keçirilir, o cümldən idxal və ixrac məsələləri ölkənin ehtiyatları prioritet götürülməklə həyata keçirilir.

Keçəm il aqrar sektorda ümumi daxili məhsul artıb. Ötən il kənd təsərrüfatında 8 ,43 milyard milyon manatlıq məhsul istehsal olunub. Bu, əvvəlki ilə nisbətən 2 faiz yüksək göstəricidir. Hesabata əsasən ötən il kənd təsərrüfatının bitkiçilik sahəsində məhsul istehsalı əvvəlki illə müqayisədə 0,8 faiz, heyvandarlıqda isə 3,1 faiz artıb. Bu il isə kənd təsərrüfatında daha çox məhsul əldə ediləcəyi gözlənilir. Həm Qarabağ və Şərqi Zəngəzur regionlarının əkin-biçin prosesinə qoşulması, həm də aqrar sektorda həyata keçirilən dövlət yardımları bunu təmin edəcək.

Dünya bazarında enerji daşıyıcılarının qiymətinin kəskin artması ölkəmizin gəlirlərini artırır. Şübhə yoxdur ki, bu gəlirlər ilk növbədə iqtisadi inkişafa və sosial müdafiəyə sərf olunacaq. Bundan başqa, işğaldan azal olunmuş ərazilərdə böyük tikinti-quruculuq işlərinə başlanıb. Ermənistanın işğalı ilə bağlı olaraq tamamilə dağıdılmış bu regionda hər şey sıfırdan başlanır, yüzlərlə şəhərlər, qəsəbələr, kəndlər bərpa olunmalı, infrasturktir və istehsal müəssisələri tikilməli, kommunal və enerji şəbəkələri yaradılmalıdır. Bütün bunlar çox nəhəng maliyyə vəsaitləri, çox ağır bir zəhmət, çox böyük vaxt tələb edir. Lakin Azərbaycan dövləti bunun öhdəsindən gəlmək iqtidarındadır. İqtisadi inkişafdan əldə edilmiş gəlirlər və indiyədək yığılmış ehtiyatlar- 55 milyard dollarlıq strateji rezervlər bunun təminatıdır.

Göründüyü kimi, Azərbaycanın qlobal iqtisadi böhran şəraitində sığortalanması imkanları çoxdur. Bu isə son dövrlərlə həyata keçirilmiş iqtisadi siyasətin nəticəsidir. Şübhə yoxdur ki, əvvəlki qlobal böhranlarda olduğu kimi, ölkəmiz bu böhrandan da uğurla çıxacaq, öz iqtisadi inkişafını və sosial sisteminin effektivliyini artıracaq.

***Elçin Bayramlı***

# PSJ-də 50 milyon dollarlıq müqavilə

***PSJ GOAT onlayn idman ayaqqabısı şirkəti ilə əməkdaşlığa başlayıb. Qol.az "Bloomberg"ə istinadən xəbər verir ki, tərəflər üç illik müqavilə üçün razılığa gəliblər. Bu əməkdaşlığa görə Paris təmsilçisi 50 milyon dollar qazanacaq. Artıq bu mövsüm PSJ yeni tərəfdaşının adını formasının qollarına yazdıracaq. Həmçinin həmin şirkət klubun stadionunda, televiziyasında və saytında reklam ediləcək.***

PSJ GOAT saytında öz mağazasına sahib olan ilk komanda olacaq. Qeyd edək ki, GOAT hər kəsin həm yeni, həm də işlənmiş idman ayaqqabılarının satıla biləcəyi onlayn platformadır.



# Məşhur müğənni niyə ölkəsini tərk etdi?

**2014-cü ildə Serkan Kodaloğlu ilə evlənən məşhur türk sima Pətək Dinçöz ötən ay boşandıqlarını açıqlamışdı. SİA xarici mətbuata istinadən xəbər verir ki, İrfan Aslan adlı oğlu olan cütlüyün 8 illik evliliyi bitib.**



Boşandıqdan sonra bir müddət səssiz qalan məşhur müğənni pərəstişkarlarını heyrətləndirib. Pətək Dinçöz susmasının səbəbini bu gün sosial media hesabından açıqlayıb. Boşandıqdan sonra yeni qərarlar alan Dinçöz Türkiyəni tərk etdiyini deyib.

O indi Mayamidə yaşayacaq. Dinçöz aldığı qərarı sosial media səhifəsində açıqlayarkən, "Hər kəsə salam. İlk öncə məni̇mlə maraqlandığınız üçün çox sağ olun, mən çox yaxşıyam. Oğlumun xarici dil təhsilini xaricdə davam etdirməsini istədiyim üçün Mayamidə yerləşməyə qərar verdim. Bir müddət işimlə bağlı gediş-gəliş edəcəm. Bundan başqa bura çox gözəldir, öyrəşməyə çalışırıq. İnstaqramda bacardığım qədər aktiv olmağa çalışacam. Hamınızı çox sevirəm" deyib.

***Ayşən Vəli***

# Gözəllik salonunda qadının pulqabısı oğurlanıb

***Yasamal Rayon Polis İdarəsinin 28-ci polis bölməsinə aprelin 12-də M.Seyidov küçəsində yerləşən gözəllik salonlarının birində paytaxt sakini olan qadının içərisində 1000 manat məbləğində pul və 200 ABŞ dolları olan pulqabının oğurlanması barədə müraciət daxil olub.***



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də eyni əmələ görə məhkum olunmuş Tərlan Bədəlov müəyyənləşdirilərək saxlanılıb. Faktla bağlı rayon polis idarəsində araşdırma aparılır.

# Xəstəliklərin yaranma səbəbinin 80% BUDUR

Fiziki, emosional, kimyəvi və zehni səbəblərdən yaranan stres, bu gün bir çox insana təsir edən xəstəlikdir. Bəzi ekspertlərin fikrincə, xəstəliklərin yaranma səbəbinin 80 faizi stresla bağlıdır. Dünya statistikasına görə son onillikdə iş yerlərində stresdən əziyyət çəkənlərin sayı artır, bu səbəbdən işçilərin sağlamlıq probleminin səviyyəsi çox yuxarıdır. Stres və onun təsirləri həm fiziki, həm də psixoloji sağlamlığımıza təsir göstərə bilər. Stres başağrısı, yuxusuzluq və ya yorğunluq kimi fiziki xəstəliklərə təsir edir. İctimai çıxışlar, həyat yoldaşınızla mübahisə etmək, iş yerlərində yaranan problem ciddi stres mənbəyidir. Stresin yaratdığı təsirlər özünü sonradan büruzə verir. Belə ki, çoxsaylı tədqiqatlar göstərir ki, qəfil yaranan emosional streslər ürək-damar xəstəliklərinə, ürək ritminin pozulmasına və hətta qəfil ölümə səbəb ola bilər. Aparılan tədqiqatlara görə müsbət münasibət yaşamaq, xoşbəxtlik, həyatdan həzz almaq stresdən uzaqlaşdıran amillərdir. Tədqiqatçılar stresdən azad olmaq üçün hər gün əyləncəli fəaliyyətlərə ən az 1 saat vaxt ayırmağın vacib olduğunu deyir.

## Başsağlığı

Məmmədhəsən Məmmədov, Yavər Nuriyev, Əlibəy Qasımov Nazim Məmmədova anası
**Səlmin xanımın**
vəfatından kədərləndikərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
***Allah rəhmət eləsin!***

# Ömrü uzadan üç ərzaq açıqlandı

***Cəfəri, kök və qırmızı soğan ömrü uzadan ərzaqlar sırasındadır. Bu barədə tanınmış rusiyalı aparıcı və həkim Yelena Malışeva danışıb. Onun sözlərinə görə, qırmızı soğan tərkibində flavonoidlərə və antioksidanlara görə bütün tərəvəzlər arasında çempiondur.***

"Flavonoidlər hüceyrələrimizi birbaşa qoruyur", - deyə mütəxəssis izah edib. O, həmçinin əlavə edib ki, qırmızı soğan, Altsheymer xəstəliyinin inkişaf riskini azaldır. Yerkökündən danışarkən aparıcı onun tərkibində çoxlu lif olduğu bildirilib. O, vurğulayıb ki, söhbət şəkərsiz və duzsuz qurudulmuş köklərdən gedir.

"Lifin bu xolesterolu qismən tutması və xaric etməsi səbəbindən bağırsaqda xolesterolun udulmasında azalma olur", - deyə yerkökün faydalarını izah etdi. Cəfəriyə gəldikdə isə mütəxəssis qeyd etdi ki, bu bitki kaliumla zəngindir. "Kalium bizi qan təzyiqinin yüksəlməsindən qoruyur", - deyə Malışeva vurğulayıb. Bundan əvvəl bildirilmişdi ki, paxlalı bitkilər, tam taxılların və qoz-fındığın istehlakı ömrü 10 ildən çox uzadır.

***Lenta.ru***



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**